# ARZULAR QALIR, MARŞRUTLAR DƏYİŞİR



Bayram tətillərini səbirsizliklə gözləyən insanlar bu fürsətdən daha çox səyahət xəyallarını gerçəkləşdirmək üçün istifadə edirlər. Təbii ki, bu səyahətlər gündəlik işdən yayınmağa, enerjini artırmağa və dünyaya yeni bir perspektivdən baxmağa kömək edir. İnsanlar büdcələrinə uyğun uzaq-yaxın xarici ölkələrə gedir və ya ölkə daxilində istirahət edirlər.

Budur, 11 günlük Novruz bayramı tətili qapıdadır. Dünyada baş verən gərgin hadisələr Azərbaycan vətəndaşlarının səyahət planlarını qismən dəyişdirsə də, tamamilə poza bilməyib. Rəqəmlər bu il daxili turizmə üz tutanların sayının çox olduğunu göstərir. Səbəb?
Turizmçilər bunu daha yaxşı izah edirlər.

SƏHİFƏ 9-da

'KASPİ' QƏZETİ 1881-Cİ İLİN YANVARINDAN NƏŞR OLUNUR. QƏZETİN ÇAPI 1999-CU İLDƏ BƏRPA OLUNUB

# Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

20 MART CÜMƏ 2026 № 11 (4262) Qiyməti - 60 qəpik www.kaspi.az



## İLHAM ƏLİYEV AZƏRBAYCAN XALQINI TƏBRİK EDİB

"Qoy qarşıdan gələn Novruz bayramı qəlblərinizi nurla doldursun, hamınıza xoş bahar əhval-ruhiyyəsi bəxş etsin, evinizə, ocağınıza əmin-amanlıq, firavanlıq və bol ruzi-bərəkət gətirsin. Bayramınız mübarək olsun!"

SƏHİFƏ 2-də



## MÜHARİBƏ, DİPLOMATİYA VƏ HUMANİZM

İranla ABŞ-İsrail cütlüyü arasındakı gərginlik davam edir. Sərhədlərimizin yaxınlığındakı bu gərginlik qlobal və regional siyasi-iqtisadi duruma da təsirsiz ötüşmür. Belə bir çətin şəraitdə rəsmi Bakı balansı qorumağa çalışır.

SƏHİFƏ 3-də

## PREZİDENT İLHAM ƏLİYEV XANOBADA NOVRUZ TONQALI QALADI

# ÜMİD, YENİLƏNMƏ, HƏYATA BAĞLILIQ



Son illərdə Novruzun ən qürurverici məqamlarından biri bayramın işğaldan azad olunmuş torpaqlarda da qeyd olunmasıdır. İllər boyu həsrətlə xatırlanan yurd yerlərində bu gün tonqallar qalanır, bayram şənlikləri keçirilir.

### XALQIN HƏYATINDA XÜSUSİ YER TUTAN BAYRAM

Təbiətin oyanışını, baharın gəlişini və yeni ilin başlanğıcını simvolizə edən Novruz əsrlərdir xalqımızın həyatında xüsusi yer tutur. Novruz təkcə təqvimdə bir gün deyil, insanın daxilən yenilənməsi, ümidlərinin təzələnməsi, gələcəyə daha inamla baxması deməkdir.

### ZƏFƏRİN RƏMZİNƏ ÇEVRİLƏN TONQALLAR

Şuşa, Xankəndi, Füzuli, Zəngilan kimi illərlə həsrət qaldığımız torpaqlarda yanan Novruz tonqalları həm də qayıdışın, zəfərin və dirçəlişin rəmzinə çevrilib. Bu torpaqlarda qalanan hər tonqal, səslənən hər bayram nəğməsi xalqın yaddaşında xüsusi yer tutur.

SƏHİFƏ 2-də və 4-də

"Topladığımız sovqatları ona aparırdıq"

## BİR PAPAQ, MİN XATİRƏ

Novruz bayramı həm də şən adət-ənənələri ilə yadda qalır. Tonqal, səməni, qapı pusmaq... Və əlbəttə ki, papaq atmaq. Qapı döyülür... Açırsan – heç kim yoxdur. Bir anlıq çaşırsan, sonra baxırsan ki, astanada bir papaq var. Bu mənzərəni xatırlayanlar deyirlər ki, içindən nə çıxacağını gözləməyin həyəcanı, dostlarla gizlənib gülmək bu anları daha da unudulmaz edirdi. Bəs bu ənənə bu gün də əvvəlki kimi yaşayırmı? Kimlər papaq atıb, kimlərin papağı boş qayıdıb?



SƏHİFƏ 7-də



## NOVRUZ ORTAQ DƏYƏRLƏR SİSTEMİDİR

Bəhmən Əliyev: "Tarixi mənbələrdə və klassik ədəbiyyat nümunələrində bayram və novruzlardan söhbət gedir. İndi Novruz kimi qəbul etdiyimiz gün sadəcə "bayram", çərşənbələr isə "novruz" və "bala çillə" adlanırmış".

SƏHİFƏ 6-da



## DİVARLARINA XOŞBƏXTLİK SİRLƏRİ YAZILAN MUZEY

Kopenhagendəki Xoşbəxtlik Muzeyi çox unikaldır. Burada ziyarətçilər xoşbəxtliyi əsrlər və müxtəlif sivilizasiyalar prizmasından kəşf edə, divarları həyatlarının ən xoş anlarının xatirələri ilə bəzəyə bilərlər.

SƏHİFƏ 15-də



## SÜRÜCÜSÜZ NƏQLİYYAT DÖVRÜ BAŞLAYIR

Küçələrimizdə tezliklə sürücüsüz nəqliyyat vasitələrini görə bilərik. Ekspertlərin qənaətincə bu layihənin uğurla reallaşması üçün bir sıra həlli vacib olan məqamlarla bağlı müvafiq dəyişikliklərə ehtiyac var.

SƏHİFƏ 8-də



## AVROPAYA SƏS SALAN TÜRKLƏR

Avropanı fəth edən türk futbolçuların siyahısı kifayət qədər genişdir. Üstəlik, bu oyunçuların əksəriyyəti gənc yaşdadır və karyeralarının ən parlaq dövrü çox güman ki, hələ qarşıdadır.

SƏHİFƏ 16-da



Əfqanıstan-Pakistan münaqişəsi kəskinləşir

SƏHİFƏ 5-də



Qazaxıstan neftinin daşınması davam edir

SƏHİFƏ 10-da



Ailə institutunda yeni reallıq

SƏHİFƏ 13-də



Özlərini "Kashalata"da xoşbəxt hiss edirlər

SƏHİFƏ 11-də



Tüstüdən gələn mistik güc

SƏHİFƏ 12-də



# İlham Əliyev Azərbaycan xalqını təbrik edib

Azərbaycan Prezidenti İlham Əliyev Novruz bayramı münasibətilə Azərbaycan xalqını təbrik edib. Mətndə deyilir:

"Hörmətli həmvətənlər! Sizi Novruz bayramı münasibətilə səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, səadət və işlərinizdə nailiyyətlər diləyirəm.

Azərbaycan torpağında çox qədim köklərə malik Novruz bayramı ulu əcdadlarımızın indiki nəsillərə müqəddəs ərmağanıdır. Bu əziz bayram uzun əsrlərdən bəri milli təfəkkür tərzimizin ayrılmaz tərkib hissəsi olub, mədəni dəyərlərimizin təşəkkülünə xüsusi töhfə vermişdir. Novruz mərasimlərində xalqımızın nikbin dünyagörüşü, təbiətə sonsuz sevgisi, yüksək əxlaqi meyarları və gələcəklə bağlı ən işıqlı arzuları bütün zənginliyi ilə təcəssümünü tapır.

Novruz ənənələrini yad təsirlərdən qoruyaraq zamanın sınaqlarından uğurla çıxarması və dövrümüzədək yaşatması Azərbaycan xalqının öz şərəfli tarixi qarşısında xidmətlərindəndir. Ali bəşəri keyfiyyətlər və dərin mənəviyyat xəzinəsi olaraq dünya mədəni irsinin qiymətli nümunələri sırasında yer alan Novruz bayramı bu gün də Vətənimizin hər bir guşəsində yüzillərin yaddaşında iz qoymuş adətlərə uyğun el şənlikləri ilə qarşılanır.

Əminəm ki, yaz fəslinin yeniləşdirici ab-havası gələcəyimizi arzularımıza uyğun qurmaq şövqümüzü daha da artıracaq və biz əzmimizlə azadlığına qovuşdurduğumuz əzəli yurd yerlərimizi aydın səma altında gözəlliklər məskəninə çevirəcəyik.

Qoy qarşıdan gələn Novruz bayramı qəlblərinizi nurla doldursun, hamınıza xoş bahar əhval-ruhiyyəsi bəxş etsin, evinizə, ocağınıza əmin-amanlıq, firavanlıq və bol ruzi-bərəkət gətirsin. Bayramınız mübarək olsun!"



# Bu gün Ramazan bayramıdır

Qafqaz Müsəlmanları İdarəsi Ramazan bayramı ilə bağlı fətva verib. "Report"un xəbərinə görə, fətvada qeyd olunub ki, Elm və Təhsil Nazirliyi Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının Qafqaz Müsəlmanları İdarəsinə verdiyi məlumata, həmçinin, Türk Dövlətləri Təşkilatı – Türkiyə, Azərbaycan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan Müsəlman Dini İdarə Rəhbərlərinin Şurası nəzdində fəaliyyət göstərən Fətva Şurasının qəbul etdiyi fətvaya əsasən, bu il Şəvval ayının 1-i Ramazan bayramı Miladi təqvimlə martın 20-nə təsadüf edir.

"Orucun mühüm əməllərindən biri olan fitrə zəkatının vaxtı Ramazan ayının son günü - bayram axşamı şam namazından sonradır. Qazılar Şurasının fətvasına görə, imkanı olan hər bir şəxsə adambaşına 10-15 manat fitrə zəkatının verilməsi tövsiyə olunur. Şəriətə görə, fitrə canın sədəqəsidir və imkanı olan müsəlmanın ailəsinin hər bir üzvü üçün fitrə zəkatı çıxarması, imkansızlara, ehtiyacı olan ailələrə verməsi vacibdir. Bu, hər bir ailəyə bayram ovqatı yaşatmaq məramı daşıyır", - fətvada deyilir.

# XANOBADA NOVRUZ TONQALI



**Prezident İlham Əliyev: "Mən altıncı ildir ki, Novruz bayramını Qarabağda qeyd edirəm. Birinci dəfə 2021-ci ildə, ondan sonra da bütün illər boyu Novruz ərəfəsində Qarabağdayam və Novruz tonqalını da Qarabağda birlikdə qalayırıq. Bu, böyük xoşbəxtlikdir".**

Tarixi qələbəmizdən keçən müddət ərzində ardıcıl neçə ildir ki, işğaldan azad edilmiş torpaqlarımızda Novruz tonqalları Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyev tərəfindən şəxsən yandırılır. Bu səfərlər həm də doğma Qarabağımıza yeni həyatın, yeni nəfəsin gəlişinin müjdəçisidir. Bu il də istisna olmadı. Dövlət başçısı və ailə üzvləri Novruzu uzun illərin həsrətindən sonra doğma yurdlarına dönən Xocavəndin Xanoba kəndinin sakinləri ilə birgə qarşıladılar.

### "MƏN ALTINCI İLDİR Kİ, NOVRUZ BAYRAMINI QARABAĞDA QEYD EDİRƏM"

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Xanobaya qayıdan kənd sakinləri ilə görüşüblər. Dövlət başçısı bildirib ki, Xanoba kəndi 2023-cü ilin sentyabr ayında işğaldan azad edilib və bundan sonra bərpa işləri başlanıb. Evlər yenidən tikildi-qurulub, bütün şərait yaradılıb: "Yəni bu şanlı Zəfərimiz artıq neçə ildir bizim qürur mənbəyimizdir. Mən altıncı ildir ki, Novruz bayramını Qarabağda qeyd edirəm. Birinci dəfə 2021-ci ildə, ondan sonra da bütün illər boyu Novruz ərəfəsində Qarabağdayam və Novruz tonqalını da Qarabağda birlikdə qalayırıq. Bu, böyük xoşbəxtlikdir".

### "İNDİ QURUB-YARATMAQ DÖVRÜDÜR"

Dövlət başçısı qeyd edib ki, biz öz milli qürurumuzu, ədaləti, ərazi bütövlüyümüzü bərpa etdik, düşməni torpaqlarımızdan qovduq: "Allah bütün şəhidlərimizə rəhmət eləsin. Silahlı Qüvvələrimiz həm 2020-ci ildə, həm 2023-cü ildə böyük qəhrəmanlıq göstərmişdir. Bunun nəticəsində biz bu gün bu torpaqlardayıq və biz bu torpaqların əsl sahibləriyik. Çünki Ermənistan buranı viran qoymuşdu. Yəni bütün kənd, qəsəbə, şəhər - hamısını dağıtmışdı. Burada bir neçə daxma tipli ev qalmışdı, amma indi baxın. Ağdam, Füzuli, Zəngilan, Cəbrayıl, Qubadlı nə gündə idi, yerlə-yeksan etmişdilər. Xaricdən gələn erməniləri Laçında, Kəlbəcərdə qanunsuz məskunlaşdırmışdılar, ora da bərbad vəziyyətdə idi. Yəni hamısını biz yenidən qururuq. Cəmi 5-6 il ərzində Qarabağda və Şərqi Zəngəzurda 80 mindən çox insan yaşayır, çalışır, təhsil alır. Demək olar ki, hər ay, bəlkə də hər həftə keçmiş köçkünlər "Böyük Qayıdış" Proqramı çərçivəsində öz doğma diyarlarına qayıdırlar".

Prezident qeyd edib ki, indi qurub-yaratmaq dövrüdür: "Ona görə kənddə də bütün şərait var, məşğulluqla bağlı da imkanlar var. Həm dövlət, həm də ki, özəl sahədə. Özəl əkin sahələri var, örüş sahələri, su var. Yəni işıq, qaz".

## QARABAĞ XANLARININ MƏSKƏNİ XANOBA

Qeyd edək ki, Xanoba kəndi Xocavənd rayonunun eyniadlı inzibati ərazi dairəsində, rayon mərkəzindən 15 kilometr cənub-qərbdə yerləşir. Bura Qarabağ xanlarına məxsus olmuş yaşayış məntəqəsidir. İşğaldan əvvəl kənddə orta məktəb, klub, kitabxana, tibb məntəqəsi və rabitə şöbəsi fəaliyyət göstərib. Kənd Azərbaycan Silahlı Qüvvələrinin 2023-cü ildə həyata keçirdiyi antiterror əməliyyatı nəticəsində işğaldan azad edilib. Kənddə mövcud fərdi evlərin sayı 153-dür. Onlardan da 21-i yararsız, 132-si isə qismən yararlıdır. Qismən yararlı evlərdən 26-sı artıq istismara hazırdır. Bu ilin sonunadək daha 106 ev hazır olacaq. Bir neçə gün əvvəl ilkin mərhələdə kəndə 25 ailə - 114 nəfər qayıdıb. Oktyabradək daha 107 ailənin köçürülməsi planlaşdırılır. Ümumilikdə ötən ilin oktyabrından Xocavənd rayonunun 6 yaşayış məntəqəsinə 1818 nəfər - 441 ailə qayıdıb. Xanoba kəndində sosial məsələlərin həlli istiqamətində bir sıra işlər görülüb. Kənddəki mövcud 2 transformator məntəqəsi, elektrik və qaz xətləri bərpa olunub, eyni zamanda, yeni elektrik, qaz və optik xətlər çəkilib, subartezian quyusunda və nasos stansiyasında təmir işləri aparılıb.

# MÜHARİBƏ, DİPLOMATİYA VƏ HUMANİZM

İranla ABŞ-İsrail cütlüyü arasındakı gərginlik artır. Bu gərginlik qlobal və regional siyasi-iqtisadi duruma da təsirsiz ötüşmür. Belə bir çətin şəraitdə rəsmi Bakı balansı qorumağa çalışır.






AZAD ƏLİYEV
azad.eliyev@kaspi.az

İran-ABŞ-İsrail müharibəsinin qlobal və regional siyasi-iqtisadi duruma təsiri davamlı olaraq artmaqdadır. Hərbi qarşıdurmanın uzanması Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz bölgəsi üçün də ciddi çağırışları özü ilə gətirir. Belə bir vəziyyətdə İran müharibəsinin ölkəmizə təsirinin minimuma endirilməsi, Azərbaycanda təhlükəsizliyin təmini istiqamətində müvafiq addımlar atılır, qərarlar qəbul edilir. Bütün bunlarla yanaşı, rəsmi Bakının diplomatik fəaliyyəti də diqqət çəkir. Münaqişənin bir çox dövlətlərin və beynəlxalq qurumların Cənubi Qafqazdakı maraqlarına da təsir etdiyi sirr deyil. Hazırda bölgəmizi, xüsusilə də Azərbaycanı istər enerji təhlükəsizliyinin təminində, istərsə də alternativ tranzit əlaqələri baxımından strateji tərəfdaşı sayan Avropa bu məsələdə fəallığı ilə seçilir.

### İLHAM ƏLİYEV ALMANİYA KANSLERİ İLƏ DANIŞIB

Hərbi qarşıdurma başlayan andan dünyanın bir çox dövlətləri, xüsusilə də Avropa ölkələri rəsmi Bakı ilə əlaqə quraraq vəziyyətlə yaxından maraqlanır, özlərinin narahatlıqlarını ifadə edirlər.

Sonuncu bu cür müzakirələrdən biri də Prezident İlham Əliyevlə Almaniya Kansleri Fridrix Merts arasında reallaşıb. Belə ki, martın 17-də tərəflər arasında telefon danışığı olub. Telefon söhbəti zamanı Yaxın Şərqdə davam edən gərginlikdən narahatlıq ifadə olunub, onun Cənubi Qafqaz regionuna mümkün təsirləri barədə fikir mübadiləsi aparılıb.

Fridrix Merts Azərbaycan ilə Ermənistan arasında davam edən sülh prosesini alqışlayıb, bunun regional sabitlik üçün əhəmiyyətini qeyd edib. Azərbaycan Prezidenti və Almaniya Kansleri ikitərəfli münasibətlərin perspektivlərini, həmçinin ölkəmizlə Avropa İttifaqı arasında əlaqələrin genişləndirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.

Məlumatdan da göründüyü kimi, Avropanın aparıcı dövlətlərinin İran münaqişəsi fonunda Cənubi Qafqaz bölgəsinə, xüsusilə də Azərbaycana diqqətləri artmaqdadır. Səbəb isə böhran şəraitində rəsmi Bakının düşünülmüş, uzaqgörən siyasəti və bütün həssas məqamları incəliklərinə qədər diqqətə almasıdır.

### RƏSMİ BAKININ DƏYİŞMƏYƏN MÖVQEYİ

Azərbaycanın diplomatik fəallığı bununla da yekunlaşmır. Dövlət başçısının xüsusi tapşırığına uyğun olaraq, digər qurumlar da münaqişə tərəfləri ilə müntəzəm əlaqə saxlayaraq proseslərin milli təhlükəsizliyimizə təhdid yaratmaması ilə bağlı xəbərdarlıqlarını edirlər.

Bugünlərdə Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla iranlı həmkarı Abbas Əraqçi arasında növbəti telefon danışığı baş tutub. Telefon danışığı zamanı regional vəziyyət və ikitərəfli əlaqələr müzakirə olunub.

Nazir Ceyhun Bayramov İran ərazisindən Naxçıvan Muxtar Respublikasına dron hücumlarından sonra verilmiş vədə uyğun olaraq, İran tərəfindən araşdırmaların tamamlanmasının vacibliyini diqqətə çatdırıb. Ümumilikdə, aparılan müharibə zamanı mülki obyektlərin hədəf alınmamasının zəruriliyi, bölgədə hərbi eskalasiyaya qısa müddət ərzində son qoyulmasının və mövcud çətinliklərin danışıqlar yolu ilə həll edilməsinin tərəfdarı olduğumuz vurğulanıb. Nazirlər həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Göründüyü kimi, rəsmi Bakı bölgədəki hərbi qarşıdurmanın tezliklə həllinə tərəfdar olduğunu bəyan etməklə, İrana qarşı hansısa dövlətlərin onun ərazisindən istifadəsinə icazə verilməyəcəyi təminatını da yeniləyir. Bununla belə, ölkəmizə qarşı əsassız hücum faktı da gözardı edilmir.

Bütün bu proseslər rəsmi Bakının İran böhranı ilə bağlı siyasətinin ardıcıl, düşünülmüş və nə dərəcədə balanslı olduğunu bir daha ortaya qoyur.

## İRANA NÖVBƏTİ HUMANİTAR YARDIM YOLA SALINIB




İran məsələsi ilə bağlı həftə ərzində diqqət çəkən digər mühüm məqam Azərbaycanın müharibədən əziyyət çəkənlərə növbəti dəfə dost əlini uzatmasıdır.

Prezident İlham Əliyev və İran Prezidenti Məsud Pezeşkian arasında 2026-cı il 8 mart tarixində baş tutmuş telefon danışığına əsasən, qonşu və dost İran xalqının hazırkı ehtiyaclarının təmin edilməsi məqsədilə 2026-cı il 18 mart tarixində İrana növbəti humanitar yardım yola salınıb. Azərbaycan Respublikasının Dövlət Ehtiyatları Agentliyinin Ehtiyatlara Nəzarət departamentinin direktoru Emil Həsənzadə bildirib ki, İran İslam Respublikasına göndərilən humanitar yardıma ümumi həcmi 82 ton olan müxtəlif adda ərzaq məhsulları, dərman vasitələri və tibbi ləvazimatlar daxildir.

Emil Həsənzadə humanitar yardımın 5 yük avtomobili (TIR) vasitəsilə göndərildiyini qeyd edib. O, humanitar yardımın Novruz bayramı ərəfəsində göndərilməsi nəzərə alınaraq, yük avtomobillərinə müvafiq Novruz sovqatı və bayram məhsullarının da əlavə olunduğunu vurğulayıb.

İranın Azərbaycandakı səfiri Müctəba Dəmirçilu deyib ki, bu, Azərbaycanın İrana göndərdiyi sayca ikinci humanitar yardımdır. Səfir Azərbaycan hökumətinə və xalqına təşəkkür edib: "Azərbaycan belə bir vəziyyətdə İrana diqqət göstərib, oradakı bacı-qardaşlara yardım edib. Bu, bizim müştərək mədəniyyətimizdən qaynaqlanır, çətin vəziyyətdə bir-birimizə kömək edirik. Qarşıdan Ramazan və Novruz bayramları gəlir. Belə bir gündə yardım edilməsi müsbət addımdır".

Göründüyü kimi, Azərbaycanın ali rəhbərliyinin çevik və uzaqgörən siyasəti tək ölkəmizin təhlükəsizliyinin təmini və milli maraqlarının müdafiəsinə köklənməyib. Rəsmi Bakı həm də xarici siyasətində əsas prioritetlərdən birini təşkil edən sülh və humanizm dəyərlərinə sadiqdir.

NOVRUZ BAYRAMI ƏSRLƏRDİR XALQIMIZIN HƏYATINDA XÜSUSİ YER TUTUR

# ÜMİD, YENİLƏNMƏ, HƏYATA BAĞLILIQ

Son illərdə Novruzun ən qürurverici məqamlarından biri bayramın işğaldan azad olunmuş torpaqlarda da qeyd olunmasıdır. İllər boyu həsrətlə xatırlanan yurd yerlərində bu gün tonqallar qalanır, bayram şənlikləri keçirilir.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Təbiətin oyanışını, baharın gəlişini və yeni ilin başlanğıcını simvolizə edən Novruz əsrlərdir xalqımızın həyatında xüsusi yer tutur. Novruz təkcə təqvimdə bir gün deyil, insanın daxilən yenilənməsi, ümidlərinin təzələnməsi, gələcəyə daha inamla baxması deməkdir. Bu bayram torpağın nəfəsi, suyun axarı, odun istiliyi və küləyin pıçıltısı ilə gəlir. Hər il eyni duyğularla qarşılanan Novruz yaddaşlarda uşaqlıqdan bu günə uzanan ən isti xatirələri oyadır.

### NOVRUZUN NƏFƏSİ ÖNCƏDƏN HİSS OLUNMAĞA BAŞLAYIR

Novruzun nəfəsi hələ günlər, hətta həftələr öncədən hiss olunmağa başlayır. Mart ayına təsadüfən "Novruz ayı" demirlər. Bu günlərdə hər evdə, hər küçədə bir canlanma olur. Pəncərələr açılır, evlərdə böyük təmizlik başlanır, həyətlər səliqəyə salınır. İnsanlar yalnız evlərini deyil, ürəklərini də təmizləməyə çalışırlar. Köhnə ilin ağırlığı, yığılan yorğunluq, inciklər sanki bu təmizliklə birlikdə geridə qalır. Hər kəs yeni ilə daha saf, daha təmiz niyyətlə qədəm qoymaq istəyir. Sanki həyatın özü də, insanlar da, bütün dünya da yenilənir, rənglənir, daha işıqlı və ümidli olur.

Novruza aparan yol isə dörd müqəddəs çərşənbədən keçir – Su, Od, Yel və Torpaq çərşənbələri. Torpaq çərşənbəsinə el arasında İlaxır çərşənbə də deyirlər. Bu çərşənbələr insanla təbiətin harmoniyasını əks etdirir. Su çərşənbəsində saflaşma, Od çərşənbəsində yenilənmə, Yel çərşənbəsində dəyişiklik, Torpaq çərşənbəsində isə həyatın oyanışı hiss olunur. Tonqallar qalanır, insanlar alovun üzərindən tullanaraq bütün ağırlıqlarını geridə qoyduqlarına inanırlar. Bu mərasimlər əsrlərin yaddaşından süzülüb gələn dəyərlərin bu gün də yaşadığını göstərir.

### NƏNƏLƏRİMİZ DEYƏRDİ: "GƏRƏK EVDƏN İY ÇIXSIN!"

Bayram öncəsi evlərdə tamam fərqli bir həyat başlayır. Qapılar açıq olur, qonşular bir-birinə gedib-gəlir, mətbəxdən gələn şirin qoxular evi bürüyür. Şəkərbura, paxlava, qoğal hazırlanması ailəvi bir ənənəyə çevrilir. Bir masa ətrafında toplaşan insanlar birlikdə çalışır, gülür, xatirələr danışırlar. Bu hazırlıq prosesinin özü artıq bayramın bir hissəsinə çevrilir. Düzdür, indi bütün şirniyyat dükanlarında paxlava da almaq olar, şəkərbura da, qoğal da. Amma azərbaycanlıların qədimlərdən özünəməxsus adəti var. Nənələrimiz deyərdi: "Gərək evdən iy çıxsın!" Yəni bayramın əhval-ruhiyyəsi, səmimi sevinc və birlik hər evdən yayılan şirniyyat qoxusu ilə bütün məhəlləyə çatmalıdır. Şəkərbura, paxlava, qoğal hər biri yalnız süfrəni bəzəmir, həm də Novruzun ruhunu evə, ürəklərə doldurur. Mütləq hər evdə bu şirniyyatlardan bişməli, hər kəs öz əməyini, zəhmətini, ürəyinin hərarətini ona qoymalı, sevgi, sevinc qatmalıdır. Evin balaca qızları hələ kiçik yaşlarından şəkərburaya naxış vurmağı öyrənməli, əlini bu şirin zəhmətə alışdırmalıdır.

## HƏYATIN YENİLƏNMƏSİNİN RƏMZİ

Bayram günü isə hər evdə xüsusi bir ab-hava yaranır. Süfrələr açılır, şamlar yanır, səməni süfrənin mərkəzində boylanır. Onun yaşıllığı həyatın yenilənməsinin rəmzidir. Ətrafına düzülən şirniyyatlar, boyanmış yumurtalar, qoz-fındıq bolluq və bərəkət arzusunu ifadə edir. Amma Novruz süfrəsinin ən böyük dəyəri insanların bir araya gəlməsidir. Bu birlik hissi bayramın əsas ruhunu təşkil edir.



## ZƏFƏRİN RƏMZİNƏ ÇEVRİLƏN TONQALLAR

Son illərdə Novruzun ən qürurverici məqamlarından biri bayramın işğaldan azad olunmuş torpaqlarda da qeyd olunmasıdır. Qarabağın dağlarında, Şuşa, Xankəndi, Füzuli, Zəngilan kimi illərlə həsrət qaldığımız torpaqlarda yanan Novruz tonqalları təkcə bayramın deyil, həm də qayıdışın, zəfərin və dirçəlişin rəmzinə çevrilib.

Uzun illərdən sonra doğma yurdlarda Novruzu qarşılamaq, o torpaqlarda səməni yetişdirmək, bayram süfrəsi açmaq ayrı bir mənəvi dəyər daşıyır. Bu, sadəcə bayram deyil – bu, tarixlə bu günün qovuşması, keçmişin ağrıları ilə gələcəyin ümidlərinin bir nöqtədə birləşməsidir.

Novruzun ən gözəl tərəflərindən biri də insanların bir-birinə daha da yaxınlaşmasıdır. İnsanlar bir-birini ziyarət edir, xoş sözlər deyir, ürəklər açılır. Bu ənənə cəmiyyətin daxilindəki bağları möhkəmləndirir, insanları bir-birinə daha da bağlayır.

Uşaqlar üçün isə Novruz ayrı bir dünyadır. Papaq atmaq, tonqal ətrafında oynamaq, yumurta döyüşdürmək onların sevinc dolu anlarına çevrilir. Bu xatirələr onların yaddaşında ömür boyu qalır və gələcəkdə bu ənənələri davam etdirmələrinə səbəb olur.

Bu gün Novruz artıq yalnız Azərbaycanın deyil, bütöv türk dünyasının ortaq mənəvi sərvəti kimi yaşayır. Əsrlər keçsə də, zaman dəyişsə də, bu bayram öz ruhunu qoruyub saxlayır. Çünki Novruz insanın daxilindəki ən saf duyğulara toxunur - ümidə, yenilənməyə, həyata bağlılığa.

Baharla birlikdə oyanan torpaq kimi, Novruz da insan ruhunu oyadır. Xatırladır ki, hər qaranlıqdan sonra işıq gəlir, hər qışın ardınca bahar gəlir. Bu gün azad torpaqlarda qalanan tonqallar isə bu həqiqəti daha da güclü şəkildə təsdiqləyir - hər bitən bir başlanğıcdır. Ümid hər zaman istidir, hər zaman işıqdır, hər zaman doğmalıqdır. Eynən Novruz bayramının əsrlər boyu göylərə ucalan tonqalı kimi...

# ƏFQANISTAN-PAKİSTAN MÜNAQİŞƏSİ KƏSKİNLƏŞİR



Pakistanla Əfqanıstan arasında hərbi qarşıdurmanın miqyası genişlənir. Artıq bir sıra ölkələr, xüsusilə də Çin vasitəçiliyini təklif edib. Lakin hələlik tərəflər arasında atəşkəs əldə etmək mümkün olmayıb.



AZƏR NURİYEV

Yaxın Şərqdəki müharibə Pakistan və Əfqanıstan arasındakı gərginliyi kölgədə qoyub. Halbuki iki ölkənin sərhədində döyüşlər davam edir.

Pakistan Hərbi Hava Qüvvələri (HHQ) mütəmadi olaraq Əfqanıstanın paytaxtı Kabulu atəşə tutur. Rəsmi İslamabad bəyan edib ki, hücumların hədəfi terror qruplaşmalarının - Pakistan "Taliban"ının və "Vilayət Xorasan"ın düşərgələridir. Hava zərbələri İslamabadda, həmçinin Bacaur bölgəsində və Pakistanın şimal-qərbindəki Bannu şəhərində fevralda baş vermiş terror aktlarına cavab olub.

### ÇİN VASİTƏÇİLİK TƏKLİF EDİR

Artıq bir sıra ölkələr, xüsusilə Çin hərbi münaqişənin aradan qaldırılması üçün vasitəçiliyə hazır olduğunu bəyan edib. Çinin XİN rəhbəri Van İ Əfqanıstandan olan həmkarı Əmir Xan Muttaqi ilə telefon danışığında mübahisələrin dialoq yolu ilə həll edilməli olduğunu söyləyib. Pekin belə çağırışlarla Yaxın Şərqdəki müharibə, Ukrayna münaqişəsi ilə bağlı da çıxış edir. Vasitəçi rolunu oynamaq üçün indiki cəhdin fərqi ondan ibarətdir ki, ÇXR-in Pakistandakı nəhəng investisiyaları təhlükə altındadır. Pekin Pakistan vasitəsilə öz şimal-qərb bölgəsini Hind okeanı ilə birləşdirən iqtisadi dəhliz yaradıb. Əfqanıstanın addımları bu dəhlizin təhlükəsizliyi üçün problem yaradır.

### ÇİN KÖHNƏLMİŞ MÜNAQİŞƏLƏRİ HƏLL EDƏ BİLƏN QLOBAL GÜC ROLUNDA



Van İ

Pekinin Əfqanıstan siyasətində mühüm bir element də var. Əgər moderator rolu uğurla nəticələnsə, bu, ən köhnəlmiş müna-qişələri həll edə bilən qlobal güc kimi Çinin beynəlxalq arenadakı çəkisini artıracaq. Pakistan istiqamətindəki kurs iqtisadi dəhlizin təhlükəsizliyini təmin etməkdir. Pakistan üçün isə Çin ilə dostluq Hindistanla üç dəfə tammiqyaslı müharibələrə gətirib çıxaran qarşıdurma fonunda son dərəcə vacibdir. Çinin Əfqanıstana münasibətinə gəldikdə, burada iki tərəfin əvvəllər müzakirə etdiyi iqtisadi layihələrlə heç bir sərt bağlılıq yoxdur. Çinin Əfqanıstana yanaşması İslamabadla əlaqələndirilir. Təsadüfi deyil ki, Pakistanın Baş naziri Şahbaz Şərif çıxışlarının birində Əfqanıstanın, əgər "yaxşı davranacaqsa", ÇXR-in köməyi ilə Pakistanda tikilmiş Qvadar limanı vasitəsilə dənizə çıxış əldə edə biləcəyindən danışıb.

Çinin vasitəçilik səylərinə baxmayaraq, hələlik qonşular arasında münasibətlər son dərəcə gərgindir. BMT bəyan edib ki, 26 fevraldan bəri münaqişə bölgəsində 75 mülki şəxs öldürülüb və 193 nəfər yaralanıb. Əfqanıstan da Pakistana cavab verib. İslamabada dronlarla zərbə endirilib. Bu səbəbdən İslamabad hava limanında uçuşlar müvəqqəti dayandırılıb. Pakistanın Daxili İşlər Nazirliyi şəhərin girişində paytaxta daxil olan insanların sənədlərini yoxlayan dəstələr yerləşdirməyə məcbur olub.



Müşərrəf Zaidi

Pakistan Baş nazirinin nümayəndəsi Müşərrəf Zaidi fevralın sonunda demişdi ki, "Taliban"la danışıqlar olmayacaq: "Dialoq mümkün deyil. Razılaşmağa bir şey yoxdur. Əfqanıstan tərəfindən terrorizm sona atma-lıdır".

## "TALİBAN" ÜÇÜN BİRİNCİ DƏRƏCƏLİ MƏQSƏD

Əfqanıstan rəhbərliyi üçün birinci dərəcəli məqsəd hücumları dəf etmək və sərhədyanı bölgələrdə vəziyyəti qismən sabitləşdirməkdir. Lakin belə görünür ki, əfqan talibləri pakistanlı taliblərlə əlaqələri kəsməyi planlaşdırmırlar.

Politoloq Klara Fonqun sözlərinə görə, taliblər Pakistan ordusu ilə mübarizəni davam etdirmək, "Qərb təsirinə" qarşı durmaq və şəriət ideologiyasını irəlilətmək istəyirlər.

Geosiyasət eksperti Qamar Çema isə hesab edir ki, Pakistanın əsas məqsədi müharibəni qonşuların ərazisinə keçirməkdir. Hələlik Pakistanın bombardmanları əsas infrastruktur obyektlərini əhatə etmir. Bu ona işarə edə bilər ki, Pakistan eskalasiya imkanı saxlamaq istəyir.

### HƏRBİ ÜSTÜNLÜK KİMİN TƏRƏFİNDƏDİR?

Hərbi ekspertlər hesab edirlər ki, hərbi baxımdan üstünlük tam olaraq Pakistan ordusundadır. "Pakistan ordusu yüzlərlə tank, təyyarə və qabaqcıl texnologiyalara malik güclü qüvvədir", - deyə BBC-nin Cənubi Asiya və Əfqanıstan üzrə müxbiri Yoqita Limaye qeyd edib. Dövlətlərin atəş gücünü müəyyən edən Global Firepower indeksində Pakistan 145 ölkə arasında 14-cü, Əfqanıstan isə 121-ci yerdədir. Eyni indeksə görə, Pakistanın ordu və hərbiləşdirilmiş birləşmələrinin ümumi sayı təxminən 1,1 milyon nəfər, Əfqanıstanın isə təxminən 165 min nəfərdir.

Buna baxmayaraq, Pakistanın məqsədinə tez nail olması və rəqibin müqavimətini sırf hərbi vasitələrlə qırması bir az çətin görünür. Əfqanıstanın ABŞ-nin kontingentini çıxararkən əldə etdiyi texnika və silahları var. NYT-nin məlumatlarına görə, Kabuldakı qara bazarlarda ABŞ istehsalı hərbi sursat və resursları - məsələn, hərbi formanı və gecə görmə eynəkləri üçün ehtiyat hissələrini almaq asandır. Bundan əlavə, "Taliban"ın ənənəvi olaraq tətbiq etdiyi mübarizə üsulları təşkilatın tam məhv edilməsini praktiki olaraq qeyri-mümkün edir. Təşkilat nöqtəvi zərbələr vurur, bütün qüvvələrini bir istiqamətə yönəltmir və liderlərin bir yerdə toplanmasından qaçır.

BURADA SİZİN REKLAMINIZ OLA BİLƏR

Tel: (+994 55) 457-02-03 / (+994 77) 447-47-17 E-mail: kaspiqazeti@kaspi.az

# NOVRUZ ORTAQ DƏYƏRLƏR SİSTEMİDİR



## Bəhmən Əliyev: "Tarixi mənbələrdə və klassik ədəbiyyat nümunələrində bayram və novruzlardan söhbət gedir. İndi Novruz kimi qəbul etdiyimiz gün sadəcə "bayram", çərşənbələr isə "novruz" və "bala çillə" adlanırmış".

SÖHBƏTLƏŞDİ

AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Dünyadakı azərbaycanlıları birləşdirən və ortaq dəyərləri yaşadan Novruz bayramı yalnız bayram süfrəsi və mərasimlərdən ibarət deyil. Bayramın hər bir elementi ənənələrin qorunması və gələcək nəsillərə çatdırılması üçün xüsusi önəm daşıyır. Novruz mərasimlərinin bölgələr üzrə fərqlilikləri, qədim ritualları və müasir dövrdə yaşadığı dəyişikliklərlə bağlı dosent, etnoqraf Bəhmən Əliyevlə söhbətləşdik.

### "ODUN ÜSTÜNDƏN TULLANMAĞIN YÜNGÜLLÜK YARADACAĞINA İNANIRLAR"

● **Bəhmən bəy, Novruz mərasimlərində, xüsusilə Qarabağ və digər bölgələrdə qeyd olunan "çilləkəsmə", od üzərindən tullanma, "Yel dağı" ziyarətləri kimi adətlərin mənəvi və mifik əsasları nələrdir?**

● Qarabağda "çilləkəsmə" mərasimi çay və bulaq üzərində həyata keçirilərdi. Yusif Vəzir Çəmənzəminlinin "İki od arasında" əsərində su kənarında "çillə kəsmək" ayı təsvir olunub. Novruz bayramı ilin 365 gününü əhatə edən xalq təqvimi sistemidir və dörd fəsli əhatə edir. Bəzən bu bayram coğrafiyada yayılmış dini inanclarla əlaqələndirilir; bəzi yerlərdə cəmi iki fəsil - yay və qış, yaxud musson yağışları olan və olmayan fəsillər mövcuddur.

> *"Müasir dünyada sosial-iqtisadi dəyişikliklər baş versə də, milli kimliyimizin və mənəvi dəyərlərimizin qorunması vacibdir. Novruzun hər bir elementinin qorunub saxlanması, gələcək nəsillərə çatdırılması və ənənəviyə əməl etməklə zənginləşdirilməsi hər kəsin borcudur."*

Tarixi mənbələrdə və klassik ədəbiyyat nümunələrində bayram və novruzlardan söhbət gedir. İndi Novruz kimi qəbul etdiyimiz gün sadəcə "bayram", çərşənbələr isə "novruz" və "bala çillə" adlanırmış. Azərbaycanın hər yerində isə odun üstündən tullanmağın yüngüllük yaradacağına inanırlar. Hətta xəstələri qucaqlarında odun üzərindən keçirirdilər ki, ağırlığı odda yansın. "Çevir ocağa, al qucağa" atalar sözündə də bu inanc yaşayıb.

Tonqal başına toplananlar növbə ilə alovun üstündən tullanar, ağırlığını oda tökməklə sanki günahlarından arınırlar. Odun qalanması isə yerin isidilməsi mənasını daşıyır, insanlar sanki ocaq qalamaqla yazın gəlişini tezləşdirirlər. Bəzi etnoqrafik ədəbiyyatlarda qeyd olunur ki, ocağın külü əkin yerlərinə tökülürdü.

Gürcüstandakı Bolnisi rayonunun Kəpənəkçi kəndi yaxınlığında "Yel dağı" adlı ziyarətgah var. Müqəddəs sayılan "Yel dağı"na ürəklərində arzu, dilək tutub, nəzir-niyaz edir, qurban gətirirlər.

Bu, xalqımızın yelin və küləyin yaradıcı gücünə inamının mifik çağlardan qaynaqlandığını göstərir. Yel çərşənbəsində "Yel dağı"na ziyarətə gedilirdi.

### "TƏZƏ SU"DAN KEÇƏNLƏR İL BOYU XƏSTƏLİKDƏN UZAQ OLURLAR"

● **Bayramın ən qədim formaları və tarixi ənənələrindən nümunələr sadalaya bilərsinizmi?**

● Azərbaycan xalqının ən qədim mifoloji mətnlərindən birində Tanrının dünyanı sudan yaratmasından danışılır. Dünyanın sudan yaranması haqqında mifik təsəvvür digər qədim xalqlarda da yayılıb. Hətta "Kitabi Dədə Qorqud"da Qazan xan "su həq didarını görmüş, mən bu su ilə xəbərləşəlim" deyir, bu da suyun müqəddəsliyini və yaşamın mənbəyi olduğunu göstərir. Boz ayda keçirilən dörd doğruçu çərşənbədən birincisi, Əzəl çərşənbədir. Su çərşənbəsi kimi tanınan bu gün xalq arasında "birinci çərşənbə", "gözəl çərşənbə", "sular Novruzu" və "gül çərşənbə" adları ilə də bilinir. Hələ gün doğmamışdan hamı su üstünə gedir, əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyir, su üstündən atlanır, yaralıların yarasına su çiləyirlər. Xalq inancına görə, su çərşənbəsi günü "təzə su"dan keçənlər il boyu xəstəlikdən uzaq olurlar.



### "ƏGƏR RUHLAR GÖRSƏLƏR Kİ..."

● **İnanca görə, dünyadan köçmüş babalarının ruhları ildə bir dəfə, məhz bu bayramda öz nəvə-nəticələrinə baş çəkməyə gəlirlər. Bu inanc necə yaranıb?**

● Bəli, inanılır ki, dünyadan köçmüş babalarının ruhları ildə bir dəfə, İlaxır çərşənbədə öz nəvə-nəticələrinə baş çəkməyə gəlirlər. İnsanlar böyük tonqallar qalayırlar ki, ətraf işığa qərq olsun, gecənin zülməti ərisin, ata-baba ruhları yurdlarını tapa bilsin. Əgər ruhlar görsələr ki, nəsilləri yaşayan evlərdə ocaqlar sönüb, adət-ənənələr unudulub, övladlarına qalan var-dövlət məhv olub, küsüb qayıdacaqlar. Məhz buna görə İlaxır çərşənbə axşamı tonqallar qalayır, şənliklər keçirilir və umu-küsü aradan götürülür.

● **Novruz bayramının bu mənəvi birlik və ortaq dəyərlər sistemində oynadığı rol gənc nəsil tərəfindən necə qorunub saxlanıla bilər?**

● Novruz bayramı dünyadakı azərbaycanlıları mənəvi baxımdan birləşdirən, ortaq dəyərləri paylaşan bir sistemdir. Yaşadığı ölkədən asılı olmayaraq bütün azərbaycanlılar bu mənəvi dəyərləri paylaşırlar. Müasir dünyada sosial-iqtisadi dəyişikliklər baş versə də, milli kimliyimizin və mənəvi dəyərlərimizin qorunması vacibdir. Novruzun hər bir elementinin qorunub-saxlanması, gələcək nəsillərə çatdırılması və ənənəviyə əməl etməklə zənginləşdirilməsi hər kəsin borcudur.

● **Müasir dövrdə şəhər və kənd Novruzu arasında hansı fərqlər müşahidə olunur və bu fərqliliklərin səbəbləri nələrdir?**

● Sovet dövründə şəhərlərdə Novruza daha çox qadağalar qoyulurdu və milli yaddaşın bərpasında bu bayram mühüm rol oynayırdı. XX əsrin ikinci yarısında münasibət dəyişsə də, yalnız Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra bayram rəsmi qeyd edilməyə başladı. Hər il Novruz yüksək səviyyədə qeyd olunur, rəsmi tədbirlər və bayram şənlikləri keçirilir. Eyni zamanda şəhər və kəndlərdə tonqal qalanması, lopa atılması kimi mərasimlər müəyyən problemlər yaradır, buna görə yanğından təhlükəsizlik qaydalarına ciddi riayət edilməlidir.

# BİR PAPAQ, MİN XATİRƏ



Bir papağın içində yalnız qoz-fındıq, şirniyyat yox, həm də uşaqlıq gizlənirdi. Gizlənib gülən uşaqlar, qapı arxasında qalan həyəcan indi xatirəyə çevrilib. Amma Novruz gələndə bu ənənə yenə də qapıları döyür.



ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

Novruz - baharın gəlişi, yeni başlanğıclar və uşaqlıq xatirələrinin yenidən canlandığı ən doğma bayramlarımızdan biridir. Bu bayram həm də şən adət-ənənələri ilə yadda qalır. Tonqal, səməni, qapı pusmaq... və əlbəttə ki, papaq atmaq. Qapı döyülür... Açırsan – heç kim yoxdur. Bir anlıq çaşırsan, sonra baxırsan ki, astanada bir papaq var. Bu mənzərəni xatırlayanlar deyirlər ki, içindən nə çıxacağını gözləməyin həyəcanı, dostlarla gizlənib gülmək bu anları daha da unudulmaz edirdi.
Bəs bu ənənə bu gün də əvvəlki kimi yaşayırmı? Kimlər papaq atıb, kimlərin papağı boş qayıdıb? Bu suallara cavab tapmaq üçün müxtəlif sahələrdən olan müsahiblərə üz tutduq.



Fazil Mustafa

## "UŞAQLIQ XATİRƏLƏRİ BU BAYRAMIN ƏSAS YADDAŞ QATIDIR"

Millət vəkili Fazil Mustafa bu məqamı belə xatırlayır: "Novruz bayramı müstəqillikdən əvvəlki dövrdə bizim üçün daha fərqli və xüsusi mahiyyət daşıyırdı. Bu, bir növ xalqın özünüifadəsinin və identifikasiyasının tərkib hissəsi idi".

Millət vəkili bildirir ki, uşaqlıq xatirələri bu bayramın əsas yaddaş qatıdır: "Uşaqlıq xatirələrim kifayət qədər zəngindir. Yumurta döyüşdürməkdən tutmuş, ilaxır çərşənbədə səhər tezdən uzaq məsafə qət edib Naxçıvan çayına getmək, orada su ilə üz yuyub geri qayıtmaq kimi adətlər vardı. Mənim üçün ən maraqlı məqamlardan biri yumurta döyüşdürmək idi. Bəzən məhəllədə "xuliqan" saydığımız uşaqlar müxtəlif üsullarla yumurtanı daha möhkəm edirdilər və onlarla yarışmaq çətin olurdu. Papaq atmaq daha çox məhəllə mühitində kollektiv şəkildə həyata keçirilən bir adət idi. Uşaqlar birləşib qapıları döyür, papaq atırdılar. Bəzi evlərdə papağın içinə meyvə və şirniyyat qoyulurdu, bəzi hallarda isə buna o qədər də müsbət yanaşılmırdı. Yəni hər kəsin bu adətə münasibəti fərqli idi".

Fazil Mustafa əlavə edir ki, əslində, Novruzun özü bütövlükdə bir xatirədir. Bu ənənələrin əvvəlki kimi yaşadılması bu gün bir qədər çətinləşib. İndi bir çox məqamlar adiləşib, lakin Novruzun gələcək nəsillərə ötürülməsi vacibdir.



Elman Cəfərli

## "BİR GÜN ƏRZİNDƏ 18 YUMURTA UDDUĞUMU XATIRLAYIRAM"

Novruzun digər tərəfi isə kollektiv yaddaş və şənliklə bağlıdır. "Yaşıl Dünya" Ekoloji Maarifləndirmə İctimai Birliyinin sədri Elman Cəfərli bu abhavanı belə təsvir edir: "İlaxır çərşənbədə tonqallar qalayar, odun üzərindən atlanardıq, ailələr bir araya gələrdi. "Kosa-keçəl" qrupları ev-ev gəzər, kiçik tamaşalar göstərər, sovqat toplayardı. Qohumlar bir-birinə gedər, bayram payı apardı. Ən sevdiyim ənənə yumurta döyüşdürmək idi. Yumurtalar əvvəl yoxlanar, sonra yarış başlanardı. Udan tərəf uduzanın yumurtasını götürərdi. Bir gün ərzində 18 yumurta udduğumu xatırlayıram".

Elman Cəfərli bildirir ki, onların yaşadığı bölgədə papaq atmaqdan daha çox "torba sallamaq" ənənəsi yayılıb və bu adətin kökləri qədim dövrlərə gedib çıxır: "Axır çərşənbə günü biz "torba sallayardıq". Biz papaq atmazdıq, pəncərəni döyüb torbanı içəri atardıq. Bu adət qədimdə damdan torba sallamaq ənənəsindən yaranıb. Təxminən 100-150 il əvvəl evlərin damında baca olurdu və torba oradan içəri sallanardı. Küçəmizdə Cahid adlı bir kişi yaşayırdı. Həyətində çoxlu heyvan saxlayır, iki iri it bəsləyirdi. Bir dəfə papaq atmağa gedəndə itlərlə qarşılaşdıq. Qorxudan qaçdıq və torbamız da orada qaldı. O anın həyəcanı və qorxusu uzun müddət yaddaşımızdan silinmədi".

E.Cəfərlinin sözlərinə görə, bu ənənələr təkcə əyləncə deyil, həm də sosial münasibətlərin bir hissəsi idi: "Bayram günlərində qohumlar bir-birinə gedər, sovqat aparardı və bu gediş-gəliş martın 22-dək davam edərdi. Uşaqlar üçün isə papaq atmaq və ya torba sallamaq sadəcə oyun deyildi - bu, həm də paylaşmaq, ünsiyyət qurmaq və bayram sevincini bölüşmək idi. Təəssüf ki, bu gün bir çox Novruz ənənələri unudulub".

## "Özümüz sadə "atəşfəşanlıq" vasitələri düzəldirdik"



Elçin Hüseynbəyli



Hacıbəy Heydərli

Yazıçı Elçin Hüseynbəyli isə Novruzun kənd mühitində daha dolğun yaşandığını deyir: "Bizim tərəflərdə - Cəbrayılda, Arazboyunda Novruz çox təmtəraqla qeyd olunurdu. Məhəllədə qalanan böyük tonqallar, gecəyə qədər davam edən şənliklər bu gün də yaddaşımdadır. Hətta özümüz sadə "atəşfəşanlıq" vasitələri düzəldirdik. Bayram axşamları o qədər gur keçirdi ki, bugünkü atəşfəşanlıq onun yanında sönük görünərdi".

E.Hüseynbəyli bildirir ki, Novruz bayramında, xüsusən də ilin axır çərşənbəsində papaq atmayan adamı təsəvvür etmək çətindir: "Hamımız papaq atırdıq və bu, sırf maraqdan irəli gəlirdi. Ən kasıb evdə belə bayramlıq olurdu. Papaqlara qoz, şabalıd, fındıq, qovurğa qoyurdular. Ən çox xoşuma gələn qaynadılıb qovrulmuş noxud idi".

Yazıçının fikrincə, bu gün şəhər mühitində həmin coşqu zəifləyib: "Bu gün bəzi ənənələr arxa plana keçsə də, qapı döyüləndə və uşaqlar papaq atanda yenə sevinirəm".

## "TOPLADIĞIMIZ SOVQATLARI ONA APARIRDIQ"

Azərbaycan Mətbuat Şurasının İdarə Heyətinin üzvü Hacıbəy Heydərli Novruzun sosial və mənəvi tərəfini önə çəkərək bildirir ki, bu bayram insanların yaddaşında xüsusi iz buraxır: "Mənim üçün də Novruz ən doğma bayramlardan biridir. Uşaqlıq illərində tonqal qalamaq və papaq atmaq ən yaddaqalan məqamlardan idi. Papaq atmaq həm də xalqımızın qonaqpərvərliyini və əliaçıqlığını göstərirdi. Biz də bu ənənələrdə iştirak edirdik və bundan böyük zövq alırdıq. Uşaqlıq xatirələrimdə xüsusi yer tutan məqamlardan biri qonşuluqda tək yaşayan yaşlı bir xanımla bağlıdır.

Biz papaq atdıqdan sonra topladığımız sovqatları ona aparırdıq. Bu, sadə görünsə də, əslində böyük mənəvi dəyər daşıyırdı".



SÜRÜCÜSÜZ AVTOMOBİLLƏRLƏ BAĞLI HÜQUQİ BAZANIN YARADILMASINA BÖYÜK EHTİYAC VAR

# SÜRÜCÜSÜZ NƏQLİYYAT DÖVRÜ BAŞLAYIR

Küçələrimizdə tezliklə sürücüsüz nəqliyyat vasitələrini görə bilərik. Ekspertlərin qənaətincə, bu layihənin uğurla reallaşması üçün bir sıra həlli vacib olan məqamlarla bağlı müvafiq dəyişikliklərə ehtiyac var.



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Azərbaycanda avtomobil, dəmir yolu, metro, tramvay, dəniz və hava nəqliyyatı daxil olmaqla bütün nəqliyyat növləri üzrə avtonom nəqliyyat vasitələrinin tətbiqi üçün normativ hüquqi, texnoloji və institusional bazanın yaradılması, mərhələli tətbiqinin təmin edilməsi nəzərdə tutulub. Bu, Prezident İlham Əliyevin sərəncamı ilə təsdiqlənən "Azərbaycan Respublikasında rəqəmsal inkişafın sürətləndirilməsinə dair 2026-2028-ci illər üçün fəaliyyət planı"nda əksini tapıb.

Sərəncama əsasən, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi (RİNN) aidiyyəti dövlət orqanları (qurumları) ilə birgə avtonom nəqliyyat sistemlərinin tətbiqi ilə bağlı beynəlxalq təcrübənin təhlili və normativ hüquqi bazanın formalaşdırılması üzrə təklifləri təqdim etməlidir. Maraqlıdır, Azərbaycanda sürücüsüz nəqliyyat realdırmı və nə vaxt tətbiq olunacaq?

### "SÜKAN ARXASINDA SÜRÜCÜ OLMADIQDA..."

Nəqliyyat məsələləri üzrə mütəxəssis Eldəniz Cəfərov "Kaspi"qəzetinə açıqlamasında bildirdi ki, bu gün ölkəmizdə sürücüsüz avtomobillərlə bağlı hüquqi bazanın və qanunvericiliyin yaradılmasına böyük ehtiyac var: "Mövcud qanunvericiliyimiz sürücü anlayışı üzərində qurulub. Lakin sükan arxasında sürücü olmadıqda qəza baş verərsə, məsuliyyət kimin üzərinə düşəcək? Avtomobildə baş verən texniki nasazlığa görə kim cavabdehdir - istehsalçı, proqram təminatçısı, yoxsa avtomobilin sahibi? Sığorta mexanizmi necə işləyəcək? Yol hərəkəti qaydalarının icrası necə təmin olunacaq? Bütün bu məsələlərin həlli üçün qanunvericilikdə dəyişikliklər edilməlidir və bu istiqamətdə artıq işlər aparılır. Eyni zamanda, avtonom sürücüsüz avtomobil anlayışı qanunvericilikdə dəqiq təsbit olunmalıdır. Avtonom nəqliyyat vasitəsinin statusu müəyyən edildikdən sonra hansı nəqliyyat vasitəsini "avtonom", "pilotsuz" və ya "sürücüsüz" avtomobil adlandırmaq mümkün olacaq".


Eldəniz Cəfərov

## EKSPERT: "BİRDƏN-BİRƏ ŞƏHƏRİN KÜÇƏLƏRİNƏ BURAXILMAYACAQ"

Mütəxəssis bildirir ki, pilotsuz nəqliyyat vasitələri birdən-birə şəhərin küçələrinə buraxılmayacaq: "Təbii ki, əvvəlcə test yürüşləri keçiriləcək və əsasən daşınma sahəsində, qapalı məkanlarda, ağıllı şəhər layihələrində istifadəsi nəzərdə tutulur. Məsələn, hava limanları və vağzallarda tətbiq oluna, daha sonrakı mərhələdə isə ölkəmizin yollarında bu avtomobillər istismar edilə bilər. Belə nəqliyyat vasitələrinin geniş tətbiqi üçün müəyyən şərtlər təmin edilməlidir. Müəyyən məsələlər həll olunmalı, təhlükəsizlik təmin edilməli, texnologiyanın tanıdılması həyata keçirilməlidir. Həmçinin hüquqi və texniki infrastrukturun yaradılması, bazanın formalaşdırılması vacibdir".

### "NƏQLİYYATIN GƏLƏCƏYİ SÜNİ İNTELLEKT ÜZƏRİNDƏ QURULUR"

Azərbaycan İnformasiya və Kommunikasiya Texnologiyaları Sənayesi Assosiasiyası İctimai Birliyinin sədri Elvin Abbasov deyir ki, Prezident İlham Əliyevin təsdiqlədiyi fəaliyyət planı ölkəmizdə nəqliyyatın gələcəyini süni intellekt və avtonom idarəetmə üzərində qurmağı hədəfləyir: "Sürücüsüz nəqliyyat vasitələri ətraf mühiti tanımaq üçün Lidar (lazer sensorları), Radar, yüksək dəqiqlikli kameralar və ultrasəs sensorlarından ibarət kompleks bir sistemlə işləyir. Bu sensorlardan gələn məlumatlar avtomobilin "beyni" tərəfindən emal edilir və saniyənin mində biri qədər müddətdə qərar qəbul edilir. Beynəlxalq şirkətlərlə qurulan sıx ünsiyyət və əməkdaşlıq çərçivəsində tətbiq olunacaq bu texnologiyanın təməlində V2X (nəqliyyatın hər şeylə əlaqəsi) sistemi dayanır ki, bu da avtomobilin işıqforlar və digər yol infrastrukturu ilə real vaxt rejimində məlumat mübadiləsi aparmasına imkan verir".



### "MİNİMAL MƏLUMAT GECİKMƏSİ HƏYATİ ƏHƏMİYYƏT DAŞIYIR"

İT mütəxəssisinin sözlərinə görə, Azərbaycanda bu texnologiyaların tətbiqi üçün internet infrastrukturu, xüsusilə 5G şəbəkəsinin genişləndirilməsi istiqamətində atılan addımlar böyük əhəmiyyət kəsb edir: "Çünki avtonom sistemlər üçün minimal məlumat gecikməsi həyati əhəmiyyətlidir. Bununla belə, yol infrastrukturunun rəqəmsallaşdırılması, yolların yüksək dəqiqlikli (HD) xəritələrinin yaradılması, yol nişanlarının ağıllı sensorlarla təchiz edilməsi və aydın nişanlanma hələ də həllini gözləyən texniki məsələlərdir".

E.Abbasov bildirir ki, işğaldan azad edilmiş ərazilərdə tətbiq olunan "ağıllı şəhər" konsepsiyaları bu sistemlərin sınaqdan keçirilməsi üçün ideal bazadır. Lakin Bakı kimi sıx və mürəkkəb yol hərəkəti olan şəhərlərdə infrastrukturun tam uyğunlaşdırılması əlavə vaxt və institusional islahatlar tələb edəcək. Mütəxəssis bildirir ki, sistemlərin təhlükəsiz işləməsi üçün kibertəhlükəsizlik ən prioritet sahədir: "Nəqliyyat vasitəsinin idarəetməsinə kənardan müdaxilə riskləri tamamilə sığortalanmalıdır. Pilot layihələrdə sürücülü və sürücüsüz nəqliyyatın qarışıq hərəkəti, insanların gözlənilməz davranışları və texniki nasazlıqlar kimi çətinliklər gözlənilir. Real proqnozlara əsasən, 2026-2028-ci illərdə biz daha çox qapalı zonalarda (limanlar, hava limanları) və xüsusi marşrutlu ictimai nəqliyyatda bu texnologiyanı görə bilərik. Sürücüsüz nəqliyyatın gündəlik həyatın ayrılmaz hissəsinə çevrilməsi isə, həm qanunvericiliyin təkmilləşdirilməsi, həm də vətəndaş məsuliyyəti və inamının formalaşması ilə 2030-cu illərin əvvəllərində daha real görünür".


Elvin Abbasov

Foto: Sabir Məmmədov / Global Photostock

11 GÜNLÜK TƏTİLDƏ İNSANLARIN DAHA BÖYÜK MARAĞI DAXİLİ TURİZMƏDİR

# ARZULAR QALIR, MARŞRUTLAR DƏYİŞİR

11 günlük Novruz bayramı tətili qapıdadır. Qonşu ölkələrdə baş verən gərginliklər insanların səyahət planlarını qismən dəyişdirsə də, tamamilə poza bilməyib.





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bayram tətillərini səbirsizliklə gözləyən insanlar bu fürsətdən daha çox səyahət xəyallarını gerçəkləşdirmək üçün istifadə edirlər. Təbii ki, bu səyahətlər gündəlik işdən yayınmağa, enerjini artırmağa və dünyaya yeni bir perspektivdən baxmağa kömək edir. İnsanlar büdcələrinə uyğun uzaq-yaxın xarici ölkələrə gedir və ya ölkə daxilində istirahət edirlər. Budur, 11 günlük Novruz bayramı tətili qapıdadır. Dünyada baş verən gərgin hadisələr insanların səyahət planlarını qismən dəyişdirsə də, tamamilə poza bilməyib.

Rəqəmlər bu il daha çox daxili turizmə üz tutanların sayının çox olduğunu göstərir. Səbəb?

Turizmçilər bunu daha yaxşı izah edirlər.

### SƏYAHƏT ZAMANI TƏHLÜKƏSİZLİK ÇOX ÖNƏMLİDİR

Turizm eksperti Əziz Şiriyev bildirir ki, insanlar bayram ərəfəsində istər ölkə daxilinə, istər ölkə xaricinə səyahətə getmək, tətil fürsətindən yararlanmaq istəyirlər. Amma dünyada olan mövcud vəziyyət onların planlarını müəyyən qədər də olsa dəyişdirib: "Məsələn, isti ölkələrə, xüsusən körfəz ölkələrinə səyahət etmək niyyətində olanlar hazırda ehtiyat edirlər. Səyahət zamanı təhlükəsizlik çox önəmlidir. Ona görə də daha çox Avropaya, Türkiyəyə, Gürcüstana maraq böyükdür. Digər türk dövlətlərinə gedənlərin sayında da artım var". Turizmçi bildirir ki, ölkədaxili turizmə də maraq böyükdür: "Bu il iki gözəl bayramın şahidiyik. Müqəddəs Ramazan bayramı ilə Novruz bayramı üst-üstə düşür. İnsanlar regionlarda bu bayramları təntənəli şəkildə qeyd edəcəklər. İstər cənub, istər şimal, istərsə də qərb və ya şimal-qərb istiqamətinə istəklər var". Turizmçi ötən illərə nəzərən turistlərin sayında azalmaların olduğunu da qeyd edir: "Bu da mövcud vəziyyətlə əlaqədardır. Həm də bizim insanlar daha çox son anda sifariş verməyi xoşlayırlar. Bütün regionların 4-5 ulduzlu hotellərində bayram əhval-ruhiyyəsi, qala gecələr, xüsusi proqramlar hazırlanıb". Qiymətlərə gəlincə, bir günlük turlar standart və ekonom paketlər olmaqla 89-139 AZN, üç günlük turlar isə 179-239 civarında dəyişir. Adambaşına ölkəxarici turpaketlər 500-700 dollar civarındadır.



Əziz Şiriyev

### İKİ MİNDƏN 10 MİNƏ QƏDƏR

Turizmçi Telman Hacıyev bildirir ki, hazırda rayonlarda iki nəfərlik, 2-3 gecəlik Novruz paketləri təxminən 400-500 AZN-dir. Qiymətlər hotellərdən asılı olaraq 800-1500 AZN arasında dəyişə bilir: "Həm daxili, həm də xarici bazara maraq olduqca çoxdur. Biz daha çox xarici bazara satış etdiyimiz üçün deyə bilərəm ki, Novruz bayramında Avropa və İstanbul üçün satışlar çox oldu". Turizmçinin sözlərinə görə, xaricə gedənlər üçün iki nəfərlik paket minimum 2000-3000 AZN, maksimum 6-10 min arası dəyişir. Rayonlarda qiymətlərin baha olmasına gəlincə, turizmçi bildirir ki, bir ailə beş ulduz hotellərdə iki gecə qalmaq istəyirsə 2000 AZN xərcləməlidir: "Hotellər qiymətləri qidalanma daxil təklif etdikləri üçün artıq normal hal alıb və insanlar müraciət edirlər. Lənkəran, Quba ən çox üz tutulan istiqamətlərdir. Qəbələ və Şəki də populyar turizm istiqamətləri kimi seçimdə üstünlük verilən rayonlardır. Düşünürəm ki, Azərbaycan daxili bazarı üçün yüksək qiymətlərdir, amma bu, reallıqdır".

## "MÜŞTƏRİLƏR ÇAŞ-BAŞ QALIBLAR"

Turizmçi Anar Həsənov hazırkı durumun kritik olmasından şikayətlənir: "Nə qədər turpaket satmışıqsa, hamısını qaytarmışıq. İnsanlar turpaketləri əvvəldən sifariş ediblər və ya alıblar. Onlar isti ölkələrə, xüsusən körfəz ölkələrinə paketlər əldə ediblər. Bizim işçilərimiz Tailandda qalmışdılar, gələ bilmirdilər. Uçuşların çoxu Dubay-Doha üzərindədir. Başqa yerlərdən uçuşlar daha bahadır. Bu uçuşlar münasib qiymətə olduğu üçün müştərilərə sərf edirdi. Müştərilər qiyməti öyrənir və müharibə ilə əlaqədar fikirlərini dəyişirlər. Onların biletləri ya qaytarılır, ya günləri dəyişdirilir. Problem ondadır ki, biz günü 10 gün sonraya dəyişirik, amma yenə də vəziyyət düzəlmir. Müştərilər də çaş-baş qalıblar. Aprelin 4-5 də Tailanda uçuşlar var. Biz viza almağa ehtiyat edirik. Çünki nə baş verəcəyini proqnozlaşdıra bilmirik. Avropaya viza lazım olduğundan bunun üçün əvvəldən tədbir görülməlidir. Ona görə də müştərilər vaxtı çatdıra bilmirlər. Məcbur qalıb tətillərini ya evlərində, ya da rayonlarımızda keçirəcəklər". Turizmçi bildirir ki, rayonlarımızda qiymətlər xariclə müqayisədə bahadır: "Xarici ölkələrdə qiymətlər həmişə buradakından ucuz olub. İndi də fürsətdən istifadə edib, yəqin ki, qiymətləri daha da artıracaqlar. Bazarda qiyməti formalaşdıran da tələb-təklifdir. İndi də təbii ki, tələb çox olduğuna görə qiymətlər qalxacaq".



Anar Həsənov

## DUBAY SƏFƏRLƏRİNİ TƏXİRƏ SALIRLAR

Turizmçi Süreyyə Axundova da bildirir ki, müştərilər Novruz tətilində adətən Dubay, Misir istiqamətinə səfər edirlər: "Hazırda Dubay tətilləri təxirə düşüb, Misir tətilləri isə davam edir. Asiya ölkələrinə də səfərlər ləğv olunur. Avropaya getmək üçün qabaqcadan planlaşdırmaq lazımdır. Buna görə də vaxt azlığından insanlarımız bu ölkələrə səfər edə bilmirlər. Nəticədə tətil günlərində istirahət üçün ən çox ölkə daxilinə üstünlük veriləcək". Turizmçi bildirir ki, yerli turizmə üstünlük verənlər daha çox Şəki, Lənkəran, Qəbələ və Qarabağa səfər edirlər: "Qiymətlərə gəlincə, bizdə həmişə bayramla bağlı qiymətlər baha olub. Turpaketə bayram proqramları, musiqili şou proqramlar, qala gecələr daxil olduğundan qiymətlər qalxır". S.Axundova ölkəmizə gələn turistlərin sayında da kəskin azalma olduğunu bildirir: "Ərəb ölkələrindən artıq bizə gələ bilmirlər. Ona görə gəlmə turizmində azalma yaranıb. Təbii ki, bu da regiondakı mövcud vəziyyətlə bağlıdır".



Süreyyə Axundova

# ZİYADXAN ƏLİYEVİN XATİRƏSİ ANILIB

Sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyev 77 illik ömrünün 43 ilini sənətə həsr edib, 50-dən çox kitabın, elmi-publisistik məqalənin müəllifidir. O, Azərbaycan təsviri sənət tarixinin yorulmaz tədqiqatçısı olmaqla, sənətşünaslıq sahəsində dəyərli elmi irs formalaşdırıb.




Sənətşünas, Əməkdar incəsənət xadimi Ziyadxan Əliyevin vəfatının ildönümü münasibətilə xatirə gecəsi keçirilib. Tədbir Milli Azərbaycan Tarixi Muzeyində təşkil olunub. Xatirə gecəsi mərhumun əziz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb. Tədbirdə sənət və mədəniyyət nümayəndələri, elm və ictimaiyyət təmsilçiləri, həmçinin mərhumun yaxınları iştirak ediblər.

Ziyadxan Əliyev 77 illik ömrünün 43 ilini sənətə həsr edib, 50-dən çox kitabın, elmi-publisistik məqalənin müəllifidir. O, Azərbaycan təsviri sənət tarixinin yorulmaz tədqiqatçısı olmaqla, sənətşünaslıq sahəsində dəyərli elmi irs formalaşdırıb. Onun əsərləri və araşdırmaları sənətşünaslıq sahəsində əvəzolunmaz mənbə hesab olunur.

**SƏNƏTŞÜNASLIQ ELMİNƏ VERDİYİ TÖHFƏLƏR VURĞULANIB**

Tədbir zamanı mərhumun həyat və yaradıcılıq yoluna nəzər salınıb, onun haqqında xatirələr və fikirlər səsləndirilib. Qeyd olunub ki, Ziyadxan Əliyev yalnız peşəkar sənətşünas kimi deyil, həm də yüksək mənəvi keyfiyyətləri, ziyalı mövqeyi və mədəniyyətə bağlılığı ilə yadda qalıb. Azərbaycan təsviri sənətinin tədqiqi, sənətkarların yaradıcılığının araşdırılması, bu irsin gələcək nəsillərə çatdırılması və təbliği sahəsində gördüyü işlərdən bəhs edərək, uzun illər ərzində sənətşünaslıq elminə verdiyi töhfələri xüsusi qeyd ediblər.



## “Səttar olduğu kimi” kitabının təqdimatı keçirilib

Tədbir çərçivəsində Ziyadxan Əliyevin müəllifi olduğu, Azərbaycan təsviri sənətinin görkəmli nümayəndəsi Səttar Bəhlulzadəyə həsr olunmuş “Səttar olduğu kimi” kitabının təqdimatı da keçirilib. Kitabın əsas özəlliklərindən biri ondan ibarətdir ki, burada bu günə qədər geniş ictimaiyyətə məlum olmayan Səttar Bəhlulzadə yaradıcılığına aid kolleksiya nümunələri öz yerini alıb.

Ziyadxan Əliyev yaradıcılığında Səttar Bahlulzadəni təkcə tədqiqat obyekti kimi yox, milli ruhun daşıyıcısı olan sənətkar kimi dəyərləndirir. Onun yazılarında Səttarın yaradıcılığı torpaqla insan arasındakı mənəvi bağ, təbiətin fəlsəfəsi, sənətkarın daxili azadlığı kimi mövzular üzərindən şərh olunur.

Səttar Bəhlulzadə ilə Ziyadxan Əliyevi yalnız sənətə olan sevgi deyil, həm də səmimi dostluq bağları birləşdirirdi. Bu səmimiyyət və yaxınlıq sənətşünasın böyük rəssam haqqında apardığı tədqiqatların dərinliyində də öz əksini tapıb.

## Sənətşünasın qələmə aldığı kitablar muzeyə hədiyyə edilib

Bununla yanaşı, tədbirdə sənətşünasın qələmə aldığı “Şuşa təsviri sənətdə” və “Heydər Əliyev təsviri sənətdə” kitabları da muzeyə hədiyyə edilib.

Eyni zamanda sənətşünasın şəxsi əşyaları, eləcə də təsisçisi və sədri olduğu “Sənətşünaslığın Təbliği” İctimai Birliyinin təşkil etdiyi “Aprel döyüşləri və Samir Kaçayev” adlı müsabiqənin qalibi Mirvari Ələsgərovanın “Samir Kaçayev” adlı portreti muzeyin ekspozisiyasına daxil edilib.

Tədbirin sərgi hissəsində Səttar Bəhlulzadə və Ziyadxan Əliyev sənətinə duyulan sevgini əks etdirən üç qrafik əsər də nümayiş olunub. Bu əsərlərin müəllifi həvəskar rəssam, ixtisasca həkim olan İlyas Əzimovdur.

Xatirə gecəsinin təşkilatçısı olan mərhumun qızı Aysel Ziyadxanlı atasının xatirəsini yad etmək üçün bir araya gələn bütün iştirakçılara təşəkkürünü bildirib.



# Qazaxıstan neftinin daşınması uğurla davam edir

SOCAR və “KazMunayQaz” (KMG) şirkəti Azərbaycan üzərindən Qazaxıstan neftinin daşınması layihəsini uğurla davam etdirərək tranzit həcmini 4 milyon tona çatdırıblar.

Qazaxıstan neftinin 427-ci partiyası “Prezident Heydər Əliyev” tankeri ilə martın 12-də Aktau limanından çıxıb və martın 13-də “Azərtrans” Səngəçal terminalına çatıb. Bu günədək tranzit edilən həcmdən 3,8 milyon ton “Tengiz” yatağının, 200 min ton isə “Kaşağan” yatağının payına düşür.

Qeyd edək ki, “Tengiz” neftinin ilk partiyası 23 mart 2023-cü ildə, “Kaşağan” neftinin ilk partiyası isə 27 yanvar 2025-ci ildə Aktaudan Bakıya çatdırılıb. Aktau limanından Səngəçal terminalına tədarük edilən Qazaxıstan nefti sonradan Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri vasitəsilə Ceyhan limanına nəql edilir, oradan dünya bazarlarına göndərilir. Layihədə Azərbaycan tərəfini SOCAR-ın törəmə müəssisəsi “SOCAR Midstream Operations” MMC təmsil edir.

Qeyd edək ki, son illərdə Qazaxıstan neftinin Azərbaycan üzərindən nəqli ilə bağlı çoxsaylı sənədlər imzalanıb. Belə ki, 2022-ci ilin noyabrında SOCAR və KMG Aktau–Ceyhan marşrutu üzrə BTC vasitəsilə ildə 1,5 milyon ton “Tengiz” neftinin tranziti ilə bağlı Çərçivə Sazişi imzalayıblar. 2024-cü ilin mart ayında SOCAR və KMG illik tranzit həcmlərinin artırılması, habelə Qazaxıstan neftinin alqı-satqısı üzrə Strateji Əməkdaşlıq Memorandumu, 15 yanvar 2025-ci il tarixində SOCAR və KMG mövcud “Tengiz” həcmlərinə əlavə olaraq ildə 240 min ton “Kaşaqan” neftinin tranzitini nəzərdə tutan Çərçivə Sazişi imzalayıblar.

BTC vasitəsilə Azərbaycandan Azəri-Çıraq-Günəşli nefti və Şahdəniz kondensatı, eləcə də digər mənbələrdən xam neft və kondensat həcmləri nəql olunur. BTC-nin hazırkı ötürmə gücü gündə 1,2 milyon barel və ya ildə 50 milyon ton təşkil edir.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ

Təsisçi
**Global Media Group**

Baş redaktor
**İlham Quliyev**

Redaksiya
Baş redaktorun müavini - **Azad Əliyev**
Müxbirlər – **Təranə Məhərrəmova, Aygün Əziz, Zərif Salmanlı**
Müəlliflər – **Azər Nuriyev, Xanım Aydın, Aqşin Kərimov, Rasim Məzahiroğlu, Sevinc Abbasova, Faiq Tahirov**
Korrektor – **Vüsal Əliyev**

Texniki şöbə
Kreativ direktor – **Murad Arbay**
Dizaynerlər
**Lalə Qasımova, İlham İsmayılov, Aydan Məmmədli**
Yayım və satış meneceri
**Vadim Manafov**

Ünvan
**Bakı, Səməd Vurğun 34, AF Mall**
**Telefon: (012) 525 03 31**
**kaspiqazeti@kaspi.az**

Qəzet “Azərbaycan” nəşriyyatında çap olunub.
Sifariş: 387
Tiraj: 2000
Müəlliflərin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.

Məqsəd əlilliyi olanlar üçün iş yerləri yaratmaq və onları cəmiyyətə inteqrasiya etməkdir

# ÖZLƏRİNİ "KASHALATA"DA XOŞBƏXT HİSS EDİRLƏR

**"Kashalata" əlilliyi olan gənclərin məşğulluğu üçün nəzərdə tutulan ilk inklüziv müəssisədir. Burada çalışan 20 işçidən 10-u əlilliyi olan gəncdir. Kafe bu gənclərə peşəkar təcrübə qazanmaq, istedad və bacarıqlarından düzgün istifadə etmək imkanı verir.**





TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Bakıda fəaliyyət göstərən "Kashalata" inklüziv kafesi əlilliyi olan şəxslərin məşğulluğunu dəstəkləməklə yanaşı, sosial səhnəyə yeni bir rəngarənglik gətirib. "Kashalata" əlilliyi olan gənclərin məşğulluğu üçün nəzərdə tutulan ilk inklüziv müəssisədir. Burada çalışan 20 işçidən 10-u əlilliyi olan gənclərdir. Kafe bu insanların sosial inteqrasiyasını təşviq etməklə onlara peşəkar təcrübə qazanmaq, istedad və bacarıqlarından düzgün istifadə etmək imkanı verir.

"Təşəkkürlər, Sizin sayənizdə hər fincanla bərabərlik və sevgi dolu inklüziv bir Dünya yaradırıq", - deyə "Kashalata" komandası fəaliyyətlərinə görə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, KOBİA, SOCAR, "Trendyol" və "PAŞA holding"ə minnətdarlığını ifadə edir!

Əlilliyi olan şəxslərin məşğulluğunu dəstəkləməyə davam edən "Trendyol" "Kashalata" kafeyə təşkil etdiyi mediaturla jurnalistlərə bu inklüziv məkanla daha yaxından tanış olmaq, gənclərin fəaliyyətini yaxından izləmək fürsəti yaratdı.

"Trendyol" özünün korporativ sosial məsuliyyət ənənəsinə sadiq qalaraq artıq iki ildir ki, əlilliyi olan şəxslər üçün iş imkanlarını genişləndirmək, eləcə də valideynlərin rifahı və maarifləndirilməsinə dəstək məqsədilə təşəbbüsə töhfə verir.

## "TRENDYOL"UN DAVAMLI DƏSTƏYİ

"Trendyol"un Azərbaycanda korporativ kommunikasiyalar rəhbəri Süheylə Cəfərova diqqətə çatdırdı ki, "Kashalata"da inkluziv məşğulluğa cəlb olunan gənclərin fəaliyyətinə "Trendyol"un Azərbaycanda həyata keçirdiyi sosial təsir proqramı çərçivəsində dəstək göstərilir: "İnsanların həyatına müsbət təsir göstərmək və cəmiyyət üçün dəyər yaratmaq "Trendyol"un sosial təsir hədəflərinə daxildir. Artıq ikinci ildir ki, "PAŞA Holding" ilə birlikdə Bakının ilk və yeganə inklüsiv kafesi olan "Kashalata" kafesinin fəaliyyətinə töhfə veririk. Burada autizim spektrində olan fərdlər daxil olmaqla bir neçə gəncimiz işlə təmin olunur və öz bacarıqlarını inkişaf etdirmək imkanı əldə edirlər. "Trendyol" "Kashalata"ya davamlı dəstək verməklə neyromüxtəlifliyə malik gənclərin cəmiyyətə sosial inteqrasiyasını təşviq edir. "Kashalata" kafenin əsas məqsədi əlilliyi olan insanlar üçün iş yerləri yaratmaq və onları əlçatan məşğulluq vasitəsilə cəmiyyətə inteqrasiya etməkdir. "Trendyol" bu işdə "Kashalata"ya dəstək verməkdən məmnundur".

"PAŞA Holding"in Korporativ sosial məsuliyyət departamentinin nümayəndəsi Bəyim İbrahimova layihənin cəmiyyət tərəfindən maraqla qarşılandığını bildirdi: "Artıq kafedə çalışan gənclərin iqtisadi fəallığı və iqtisadi müstəqillikləri var. "PAŞA Holding"in əsas məqsədi cəmiyyətə töhfə vermək və bunun real nəticələrini görməkdir".




## AUTİZMLİ GƏNCLƏRİN ƏMƏK BAZARINA QOŞULMASI ÜÇÜN MÜHÜM PLATFORMA

"Biz göstərmək istəyirik ki, əlilliyi olan insanlar uğurlu peşəkar ola, layiqli həyat qazana və cəmiyyətə töhfə verə bilərlər", - deyən "Kashalata"nın yaradıcısı, "Birgə və Sağlam" İctimai Birliyinin sədri Aytən Eynalova layihənin ölkəmizdə reallşamasına nail olduqlarına görə qürur duyur: "Kashalata" autizmli gənclərin əmək bazarına qoşulması üçün mühüm platformadır. Bizim üçün bu layihənin davamlılığı çox önəmlidir. Bu gənclərin cəmiyyətə inteqrasiyası üçün erkən müdaxilə modellərinin düzgün şəkildə olması, məşğulluqlarının təmin olunması üçün çalışırıq".

A.Eynalova "Kashalata" kafesinin yerlə təmin olunmasna dəstək göstərən "PAŞA Holding"ə və burada inklüziv məşğulluğa cəlb edilən gənclərin əmək haqqının ödənilməsinə yardım edən "Trendyol"a minnətdarlığını ifadə etdi: "Bu dəstək autizmli gənclərdə özünəinama və inkişafa motivasiya verir".

## "ONLAR MÜŞTƏRİ GÖRƏNDƏ SEVİNİR, RAHAT ÜNSİYYƏT QURURLAR"

Kafedə çalışan 10 uşaqdan doqquzu autizm, biri isə daun sindromludur. "Kashalata" üçün işçilərin tapılması və seçilməsi prosesinin özünəməxsus xüsusiyyətləri var. Valideynləri İB-in sosial platformalardakı səhifələrindən xəbər tutub müraciət edirlər. Təhsil direktoru, mərkəzin psixoloqu tərəfindən dəyərləndiriləndən sonra gənclərin bacarıqları qiymətləndirlilir və onlar yönləndirilirlər. İB əməkdaşları tərəfindən onların iş mühitinə adaptasiyasına dəstək göstərilir.

"Birgə və Sağlam" İB-nin xüsusi təhsil mütəxəssisi Nuridə Qasımova autizmli gənclərlə işləməyin çətin və məsuliyyətli olduğunu bildirir: "Ancaq prosesi öyrəndikdən sonra bu iş insana mənəvi zövq verir".

İB-nin koçu Dəniz Əzizova gənclərin iş prosesindən söhbət açır: "Onlar müştəri görəndə sevinir, rahat ünsiyyət qururlar. Çox istərdik ki, hər kəs bu kafenin yolunu tanısın. Bəzən cəmiyyətdə belə bir kafeyə gəlməklə bağlı fikir ayrılığı olur. Ancaq müştərilərin çoxluğu bu cür insanların cəmiyyətə inteqrasiyası üçün ən böyük dəstəkdir".

## HƏR BİRİNİN ÖZ MARAQLI HEKAYƏSİ VAR

İnklüziv məşğulluğa cəlb olunan autizmli gənclər özlərini "Kashalata"da xoşbəxt hiss edirlər. Onlar barista kimi əvəzolunmazdırlar. Hər birinin öz maraqlı hekayəsi var. Bu gənclərin müştərilərlə gündəlik ünsiyyəti stereotipləri aradan qaldırmağa kömək edir. Gələnlər kafedəki unikal atmosferi qeyd edir və işçilərin peşəkarlığını yüksək qiymətləndirirlər.

Kafedə çalışan Hüseyn Hüseynzadənin 21 yaşı var: "Gələn müştəriləri qarşılayır, xidmət göstərirəm. Onlar gedəndə "bizə xoş idi" deyirlər. Bu, məni sevindirir, özümü məmnun hiss edirəm".

20 yaşını qeyd edən Əziz Qəmbərov hazırda Azərbaycan Dillər Universitetinin 2-ci kurs tələbəsidir. Səhərlər dərsə, günortadan sonra işə tələsir. İngilis və rus dillərini bildiyindən kafeyə gələn əcnəbi qonaqlarla da ünsiyyəti rahat alınır: "Müştərilərdən xoş sözlər eşitmək məni həvəsləndirir. Boş vaxtlarımda həyatı analiz edirəm və şəkil çəkirəm. Arzum səyahət etməkdir: Yaponiyanı, ABŞ-ni görmək istəyirəm".

"Kashalata" təcrübəsi sübut edir ki, inklüziv məşğulluq təkcə sosial məsuliyyət deyil, həm də iqtisadi cəhətdən səmərəli bir layihədir. Əlilliyi olan insanlar üçün iş yerləri yaratmaqla kafe təkcə cəmiyyətin inkişafına töhfə vermir, həm də hər bir insanın imkanları və dəyəri haqqında təsəvvürləri dəyişdirir.















BİZİM ÜÇÜN QALXAN ROLUNU OYNAYAN ÜZƏRLİK HÜQUQİ MÜZAKİRƏ MÖVZUSUDUR

# TÜSTÜDƏN GƏLƏN MİSTİK GÜC



**Üzərliyin mistik təsirinin səbəbi əslində, onun tərkibində yatır. Üzərlikdə olan maddələr əsrlər boyu insanlarda tüstüdən sonra yüngül başgicəllənmə, dəyişmiş şüur vəziyyəti və sakitləşmə hissi yarada bilib. Həmin vaxt insanlarda yaranan rahatlıq hissi "enerji təmizləndi" inancını gücləndirib.**



AYGÜN ƏZİZ
aygunaziz@kaspi.az

Kimsə tərifləndikdə, uğur qazandıqda, yeni evə köçdükdə, yeni işə qəbul olunduqda, hətta işlər tərs getdikdə, uşaq səbəbsiz ağladıqda belə, o bitki imdadımıza çatır. Söhbət üzərlikdən gedir. Dərhal yandırılır, hər yer tüstüyə qərq olur, problemlər, mənfi enerjilər sanki onunla birlikdə pəncərədən çıxır. Bəzən bu tüstünün bütöv bir taleyi dəyişdirəcəyinə inanırıq. Məsələn, toylarda, nişan mərasimlərində, elçiliklərdə, gəlinin arxasınca yandırılan üzərlik çox mühüm detaldır. Lakin son zamanlar bizim üçün qalxan rolunu oynayan bu bitki hüquqi müzakirə mövzusudur. Məsələn, çox uzaqda deyil, qonşu Rusiyada üzərlik narkotik vasitə kimi qiymətləndirilir. Hətta bəzi aviaşirkətlər xarici səyahətlər zamanı bu bitkini özünüzlə götürməməyi tövsiyə edir. Maraqlıdır, üzərlik həqiqətən "göz qaytarırmı"?

### "TÜSTÜ VƏ ALOVUN PİS RUHLARI QOVDUĞUNA İNANILIR"

Folklorşünas Elxan Yurdoğlu deyir ki, üzərlik ritualı təkcə Azərbaycanda deyil, Orta Şərq-Mərkəzi Asiya mədəniyyətində də inanc sistemi olan ritualdır. Bu inancın kökləri İslamdan əvvəlki dövrlərə qədər gedib çıxır: "Türk və İran mifoloji düşüncəsində də üzərlik ritualı mövcud olub. Bəzi fikirlərə görə, bu ritualın əsas kökü Zərdüştilik dünyagörüşü ilə əlaqəlidir. Tüstü və alovun pis ruhları qovduğuna inanılır".

### İNSANLA ŞƏR QÜVVƏ ARASINDA SİMVOLİK SƏRHƏD

Həmsöhbətimiz deyir ki, Azərbaycan folklor düşüncəsində "gözdəymə" təkcə məişət inancı deyil, onun mifoloji-semantik sistemin bir parçası olduğu düşünülür: "Yəni bu anlayış həm kosmoloji, həm sosial, həm də psixoloji çəkiyə və qatlara malikdir. Burada semantik qat dedikdə enerjinin və baxışın sanki maddiləşməsi, yəni insan enerjisi və həsədli baxışların təsir edə bilən güc formasına keçməsi nəzərdə tutulur. Animistik dünyagörüşə görə, insanın daxilində enerji var, buna ruhun qüvvəsi də deyə bilərik. Bu enerji isə özlüyündə baxış vasitəsilə qarşı tərəfə təsir edə, ötürülə bilər. Xalq düşüncəsində belə bir inanc var ki, gözdəymə zamanı qazanılan uğurun qarşısı alına bilər. Üzərlik isə mifoloji sistemdə qoruyucu vasitədir və əsrlərdir xalq arasında təmizləyici funksiya daşıyıcısıdır. Üzərlik yanarkən onun çıtırtılısı mənfi enerjini dağıtmaq, qovmaq, pis gözləri "çıxarmaq", "yandırmaq" gücünə malikdir. Hətta üzərliyin yandırılması zamanı tüstünün insanla şər qüvvə arasında simvolik sərhəd yaratmasına inanılır. Günümüzdə üzərlik yandıranların bir çoxu bunu artıq keçmişdən qalan bir ənənənin davamı kimi yerinə yetirirlər. Bu gün evlərdə üzərlik yandıran nənələrimiz, analarımız kollektiv yaddaşı imitasiya edirlər, yamsılayırlar".



Elxan Yurdoğlu

## "ÜZƏRLİYİN QORUYUCU TƏSİRİ OLDUĞUNA İNANIRAM"

Folklorşünas bildirir ki, üzərlik qədim dövrlərdən mistik və şəfalı ot kimi istifadə olunub. Buna görə də şəfaverici xüsusiyyətlərdən çıxış edən əcdadlarımız ona "gözqaytarma" funksiyası da yükləyiblər: "İnanc sisteminə oturan və davamlılıq qazanan bir ritualı xalqın düşüncəsindən çıxarmaq çətin məsələdir. İnsan inanırsa, bunu dəyişmək çətindir. Mən də üzərliyin müəyyən qoruyucu təsirinin olduğuna inananlardanam. "Belə bir gücü var və ya yoxdur" demək, qəti hökm verməkdir ki, xalq düşüncəsində buna çox da yer yoxdur. Xalq düşüncə sistemində formalaşmış inanc çox vaxt uzun əsrlik təcrübələrin nəticəsi kimi qəbul edilir. Buna görə də folklor irsinin tamamilə yanıldığı qənaətində deyiləm".

NLP və enerji mütəxəssisi Nuranə Camal deyir ki, üzərlik harmin, harmalin və harmalol kimi kimyəvi tərkib və aktiv maddələrə malik olduğu üçün insan bədənində serotonin, dopamin və noradrenalin kimi neyromediatorların parçalanmasını azalda, ürəkbulanmaya, başgicəllənməyə, hallüsinasiyalara və sinir sistemi pozuntularına səbəb ola bilər: "Orta Şərq, Hindistan və Şimali Afrikanın bəzi bölgələrində qadın sağlamlığı ilə bağlı xalq təbabətində istifadə olunub. Bu inancın arxasında bitkinin tərkibində olan harmalin və harmin kimi güclü bioaktiv alkaloidlərin uşaqlıq əzələlərinə təsir edə bilməsi ehtimalı dayanır. Üzərliyin toxumları yalnız tibbi və ritual məqsədlərlə deyil, həm də boyaq mənbəyi kimi istifadə edilib".

### "İNANC OLAN YERDƏ CANSIZ DAŞ DA CAN TAPA BİLƏR"

Həmsöhbətimiz bildirir ki, üzərliyin mistik təsirinin səbəbi əslində, onun tərkibində yatır: "Üzərlikdə olan maddələr əsrlər boyu insanlarda tüstüdən sonra yüngül başgicəllənmə, dəyişmiş şüur vəziyyəti və sakitləşmə hissi yarada bilib. Həmin vaxt insanlarda yaranan rahatlıq hissi "enerji təmizləndi" inancını gücləndirib. Tarix boyu davam edən bu inanc bu günə qədər gəlib çatıb və insanların şüurunda üzərlik xüsusi enerjiyə, mistik gücə malik bitki kimi formalaşıb. Düşünürəm ki, Azərbaycan ailələrinin ən azı bir üzvü üzərlik gördükdə onu göz-nəfs təmizləyən bitki kimi qəbul edir və nəticə etibarilə üzərliyə olan inancımız neqativ enerjilərin təsirini azaltmağa xidmət edir. Necə deyərlər, inanc olan yerdə cansız daş da can tapa bilər".



Nuranə Camal

### ÜZƏRLİYİN İSTİFADƏSİ İLƏ BAĞLI BİRBAŞA QADAĞA MÖVCUD DEYİL

Məlumat üçün bildirək ki, Səhiyyə Nazirliyi vətəndaşların sağlamlığının qorunması və maarifləndirilməsi məqsədilə üzərlik bitkisinin tərkibi, onun insan orqanizminə təsiri və bu sahədə mövcud olan risklər barədə məlumat paylaşıb. Məlumata görə, üzərlik bitkisinin tərkibində olan harmin, harmalin, harmalol, tetrahidroharmin kimi alkaloidlər elmi ədəbiyyatda "harmala alkaloidləri" və ya "beta-karbolin alkaloidləri" adlanır. Bu qrup alkaloidlər mərkəzi sinir sisteminə təsir göstərən psixoaktiv birləşmələrdir. Bu maddələr beynin müəyyən funksiyalarına təsir edərək sinir impulslarının ötürülməsini dəyişdirir.

Ölkədə bu bitkinin qadağasına gəldikdə isə, qurumdan bildirilir ki, hazırda üzərliyin istifadəsi ilə bağlı birbaşa qadağa mövcud deyil. Lakin "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" qanuna əsasən, tərkibində narkotik və ya psixotrop təsirli maddələr olan bitkilərin kultivasiyası, idxalı, satışı və istifadəsi məhdudlaşdırıla bilər.

# AİLƏ İNSTİTUTUNDA YENİ REALLIQ

Son illər azərbaycanlı xanımların xarici ölkə vətəndaşlarıyla ailə qurması tendensiyası nəzərəçarpacaq dərəcədə artıb. Xarici vətəndaşlarla ailə quran azərbaycanlıların böyük hissəsi qadınlardır. Onlar daha çox Türkiyə, Rusiya və Gürcüstan vətəndaşlarını seçirlər.






ZƏRİF SALMANLI
zarifsalmanli@kaspi.az

2025-ci il üzrə açıqlanan rəsmi statistika göstərir ki, azərbaycanlıların xarici vətəndaşlarla evlilikləri artıq təsadüfi hal deyil, davamlı sosial prosesə çevrilib. Belə ki, Türkiyə Statistika İdarəsinin məlumatına əsasən, 2025-ci ildə Türkiyədə ümumilikdə 552 237 nikah qeydə alınıb. Bu nikahlardan 1 936-sı Azərbaycan vətəndaşı olan qadınların, 253-ü isə Azərbaycan vətəndaşı olan kişilərin payına düşür.

Paralel olaraq, Azərbaycan üzrə göstəricilər də qarışıq nikahların artdığını təsdiqləyir. Ədliyyə Nazirliyinin məlumatına görə, 2025-ci ildə Azərbaycan vətəndaşları ilə əcnəbi və ya vətəndaşlığı olmayan şəxslər arasında, ümumilikdə 2 081 nikah rəsmiləşdirilib. Bu evliliklərdə əsas tərəfdaş ölkələr sırasında Rusiya, Türkiyə, Gürcüstan, Ukrayna, Qazaxıstan, Pakistan xüsusi yer tutur.

Ədliyyə Nazirliyindən sorğumuza cavab olaraq bildirilib ki, ötən il Azərbaycan vətəndaşı olan qadınlar ən çox Türkiyə (304 nikah), Rusiya (225 nikah) və Gürcüstan vətəndaşları ilə (196 nikah) ailə qurublar.

**“ƏLAQƏLƏR ARTDIQCA TANIŞLIQLAR GENİŞLƏNİR”**

Sosioloq Mail Yaqubun sözlərinə görə, son illər azərbaycanlı xanımların və bəylərin xarici vətəndaşlarla ailə qurması tendensiyası nəzərəçarpacaq dərəcədə artıb. Bunun əsas səbəbi insanlar arasında əlaqələrin və ünsiyyət imkanlarının genişlənməsidir: “Sovetlər dövründə Azərbaycanın xarici ölkələrlə münasibətləri məhdud idi, internet və sosial şəbəkələr mövcud deyildi. İnformasiya texnologiyalarının inkişafı, miqrasiyanın artması nəticəsində əlaqələr çoxalıb. Əlaqələr artdıqca tanışlıqlar genişlənir, tanışlıqlardan isə ailələr formalaşır. Bu, tamamilə təbii və obyektiv prosesdir”.

M.Yaqub bildirdi ki, xüsusilə Rusiya və Türkiyə ilə bu cür evliliklərin daha çox olması təsadüfi deyil: “Hər iki ölkə Azərbaycana coğrafi, tarixi və sosial baxımdan yaxındır. Rusiya ilə uzunmüddətli miqrasiya əlaqələri mövcuddur və bu ölkədə azərbaycanlı kişilərin rus xanımlarla ailə qurması daha çox müşahidə olunur. Türkiyədə isə əksinə, azərbaycanlı xanımların türkiyəli bəylərlə evlənməsi tendensiyası son illərdə artıb. Bu prosesin əsas səbəbi yenə də kommunikasiyanın intensivliyidir. Türkiyə ilə bağlı şəxsi müşahidələrimə əsasən demək olar ki, azərbaycanlı xanımların daha evdar, ailəyə və həyat yoldaşına qarşı daha diqqətli olmaları cəlbedici amillərdən biridir. Lakin bu, əsas səbəb deyil, sadəcə faktorlardan biridir”.

**“XALQLAR MİLLİ VƏ ETNİK KİMLİKLƏRİNİ QORUMALIDIR”**

Sosioloqun fikrincə, bu tendensiyanın Azərbaycan üçün mənfi tərəfləri də var: “İlk növbədə, demoqrafik baxımdan ölkə üçün risklidir. Azərbaycanlı xanım xarici vətəndaşla ailə qurduqda, əksər hallarda Azərbaycan vətəndaşlığından çıxaraq başqa ölkənin vətəndaşlığına keçir. Əhali sayı çox olmayan ölkə üçün bu, arzuolunan hal deyil. Əhalinin artımı hərbi, strateji, siyasi və iqtisadi baxımdan son dərəcə vacib məsələdir. Digər mühüm məqam mədəni aspektlə bağlıdır. Xarici vətəndaşla ailə qurmaq nəticəsində həmin ölkənin mədəni mühiti fərdin həyatına təsir göstərir və bu, bəzi hallarda assimilyasiya riskini artırır. Müasir sosiologiya göstərir ki, qloballaşma güclənsə də, xalqlar milli və etnik kimliklərini qorumağa meyllidirlər. Öz mədəniyyətinə sədaqət müasirliyə zidd deyil, əksinə, sağlam cəmiyyətlərin əsas göstəricisidir”.


Mail Yaqub

## “Rasional planlar da var”

Psixoloq Vüsalə Əmiraslanova isə düşünür ki, əvvəlki dövrlərdə də azərbaycanlı xanımların xarici vətəndaşlarla ailə qurması halları az olmayıb. Lakin son illərdə bu prosesin mahiyyəti dəyişib: “Əgər əvvəllər bu evliliklər daha çox ailə qurmaq məqsədi daşıyırdısa, bu gün artıq özünü inkişaf etdirən, təhsil alan və karyera hədəfləri olan xanımlar arasında da bu meyl artıb. Hazırda bu qərarların arxasında yalnız emosional deyil, rasional planlar da dayanır. Bir çox xanımlar ailə qurarkən karyera imkanlarını, sosial rifahı, təhlükəsiz həyat şəraitini, eləcə də ailədaxili iş bölgüsünün ədalətli aparılmasını nəzərə alırlar. Qadına münasibətin daha hörmətli olduğunu düşündükləri ölkələrdə yaşamaq, vətəndaşlıq almaq və xüsusilə Avropa ölkələrinə köçmək istəyi bu seçimlərdə mühüm rol oynayır”.

V.Əmiraslanovanın sözlərinə görə, bəzi xanımlar azərbaycanlı ilə ailə qurduqları halda həyatlarına həddindən artıq müdaxilə olacağından ehtiyat edirlər: “Bu düşüncə evlilikdən qaçmağa və ya xarici vətəndaşla ailə qurmağa meyli gücləndirir. Daha sərbəst həyat, psixoloji və maddi yükün az olması, ailə müdaxiləsinin minimuma endirilməsi əsas motivlərdəndir. Diqqətçəkən məqamlardan biri də odur ki, azərbaycanlı xanımlar daha çox Türkiyə vətəndaşlarına üstünlük verirlər. Ortaq din, oxşar dil və mədəni yaxınlıq bu seçimi asanlaşdırır. Digər tərəfdən, Böyük Britaniya və digər Avropa ölkələrində yaşayan ingilisdilli xalqların təmsilçiləri ilə evliliklər daha çox həmin dili bilən və xaricdə təhsil alan xanımlar arasında müşahidə olunur. Bəzi hallarda evlilik, həmin ölkədə qalmaq üçün hüquqi təminat rolunu da oynayır”.

## “Bu evliliklərin arxasında...”

Psixoloq kişilərin əcnəbilərlə qurduğu evliliklərdən də danışdı: “Azərbaycan kişilərinin xarici xanımlarla evlənməsi əsasən xaricdə qalmaq məqsədi daşıyır. Xarici xanımı Azərbaycana gətirib burada yaşamaq halları çox nadirdir. Çox vaxt bu evliliklərin arxasında daimi yaşamaq və ya vətəndaşlıq almaq istəyi dayanır”.

V.Əmiraslanovanın fikrincə, qarışıq nikahların müsbət tərəfləri də var: “Bu evliliklər vasitəsilə Azərbaycanın xaricdə əlaqələri genişlənir, başqa ölkələrin dəyərləri və idarəetmə modelləri öyrənilir, gediş-gəliş imkanları artır, övladların gələcəkdə xaricdə təhsil alma perspektivi yaranır”.


Vüsalə Əmiraslanova

**“ANA XARİCİDİRSƏ, UŞAQ DA ƏCNƏBİDİR”**

Psixoloqun sözlərinə görə, belə izdivacların mənfi tərəflər də az deyil. Əksər hallarda ailə tam şəkildə xaricə köçməyə məcbur qalır: “Evlilikdən əvvəl “Azərbaycana köçəcəyik” vədləri verilsə də, praktikada bu nadir hallarda baş verir. Bəzi kişilər düşünür ki, “biz azərbaycanlıyıqsa, uşağımız da avtomatik azərbaycanlı olacaq”. Lakin unudulmamalıdır ki, uşağın tərbiyəsində ananın rolu həlledicidir və ana hansı mədəniyyətdə formalaşıbsa, övlad da istər-istəməz həmin etnosun psixologiyasını və dəyərlərini mənimsəyir”.

QANUNVERİCİLİKDƏ HƏR KƏSİN BU İMKANDAN YARARLANMAQ HÜQUQU YOXDUR

# ADIMIZI DƏYİŞDİRMƏK ASANDIRMI?

Adın dəyişdirilməsi haqqında ərizənin icra müddəti qanunvericiliklə tənzimlənmir. Təcrübəyə görə bu müddət təxminən 2-3 ay davam edir. Lakin hər kəs ad, soyad və ya ata adını dəyişmək hüququna malik deyil.




SEVİNC ABBASOVA

Ad insanın kimliyidir. Lakin 2025-ci ildə iki mindən çox Azərbaycan vətəndaşı bu kimliyə yenidən baxmaq qərarı verib. Ədliyyə Nazirliyinin rəsmi məlumatına görə, ötən il ölkə üzrə qeydiyyat orqanları tərəfindən ümumilikdə 2723 şəxs barəsində adın, soyadın və ya ata adının dəyişdirilməsi ilə bağlı akt qeydi tərtib olunub. Bu göstərici əvvəlki illə müqayisədə artım deməkdir və cəmiyyətdə fərdi identikliklə bağlı yanaşmaların dəyişdiyini göstərir. Belə ki, adın, soyadın, ata adının dəyişdirilməsi ilə bağlı 2023-cü ildə 2492, 2024-cü ildə isə 2667 akt qeydi tərtib edilib. Statistik məlumatlar göstərir ki, 2025-ci ildə vətəndaşların ən çox üstünlük verdiyi dəyişiklik soyadla bağlı olub. Belə ki, 1383 nəfər soyadını dəyişmək üçün müvafiq qurumlara müraciət edib. Adını dəyişdirənlərin də sayı az deyil. Rəqəmlərə əsasən, 917 nəfər yalnız adını dəyişib. Ata adının dəyişdirilməsi isə cəmiyyətdə hələ də nadir hal olaraq qalır. Ötən il cəmi 5 nəfər ata adından imtina edib və ya onu dəyişdirib. Bu fakt ata adının Azərbaycan cəmiyyətində ənənəvi və sabit identiklik elementi kimi qorunduğunu göstərir.

Maraqlıdır, görəsən, adını bəyənməyən vətəndaşlar onu hansı hüquqi əsaslarla dəyişə bilərlər və bu prosedur necə həyata keçirilir? Adın dəyişdirilməsi üçün müraciət zamanı vətəndaşdan hansı sənədlər tələb olunur və yaş məhdudiyyəti varmı? Adın dəyişdirilməsi prosesi orta hesabla nə qədər vaxt aparır və müraciətin icra müddəti qanunvericiliklə necə tənzimlənir?

### DƏYİŞİKLİK YETKİNLİK YAŞINDAN SONRA MÜMKÜNDÜR

Hüquqşünas Ruslan Vəliyev bildirib ki, 18 yaşına çatmış Azərbaycan vətəndaşı ad, ata adı və soyadının dəyişdirilməsi ilə bağlı müraciət etmək hüququna malikdir: "Bunun üçün ərizə vətəndaşın yaşayış yeri üzrə qeydiyyat şöbəsinə, xarici ölkədə daimi və ya il ərzində 182 gündən artıq müvəqqəti yaşayan vətəndaş tərəfindən isə konsulluğa verilir. Ərizədə şəxsin soyadı, adı, atasının adı, adını, ata adını və ya soyadını dəyişdirmək istəyi, daşımaq istədiyi ad, ata adı və soyad, doğulduğu tarix və yer, milliyyəti və vətəndaşlığı, yaşayış və iş yeri, vəzifəsi, hərbi qeydiyyat yeri qeyd edilir. Həmçinin əvvəllər ad, ata adı və soyad dəyişdirilibsə, nə vaxt və harada dəyişdirilməsi barədə məlumat, o cümlədən ərizə verənədək bağladığı nikahlar və onların pozulması haqqında məlumatlar, övladları barədə məlumatlar, xarici ölkələrdən deportasiya olunmuşdursa, bu barədə məlumatlar və şəxsiyyətini təsdiq edən sənədin seriyası, nömrəsi və verilmə tarixi qeyd edilməlidir. Müvafiq qurum araşdırmalardan sonra 15 gün müddətində rəy tərtib edir".

### HANSI HALLARDA İMTİNA CAVABI GƏLƏ BİLƏR?

Ekspert deyib ki, ad, ata adı, soyad dəyişdirildiyi halda qeydiyyat şöbəsi və ya konsulluq üç iş günü müddətində bu barədə ərizə verən şəxsə məlumat verir və o, qeydiyyat şöbəsinə və ya konsulluğa gəldiyi gün adın, ata adının, soyadın dəyişdirilməsini qeydə alır və müvafiq şəhadətnamə verir. Onun sözlərinə görə, bəzi hallarda vətəndaşa imtina cavabı gələ bilər: "Ərizə verən şəxs cinayət mühakimə icraatına şübhəli və ya təqsirləndirilən şəxs qismində cəlb edildiyi dövrdə, ərizə vermiş şəxsin götürülməmiş və ya ödənilməmiş məhkumluğu olduqda, müraciət etmiş şəxs barəsində tibbi xarakterli məcburi tədbirlər tətbiq edildikdə, xarici ölkədən deportasiya olunması ilə bağlı qərar olduqda şəxsin ad, ata adı və soyadının dəyişdirilməsinə yol verilmir. Bu barədə beş iş günü müddətində ərizə verən şəxsə məlumat verilir. Vətəndaş qərarla bağlı məhkəməyə müraciət etmək hüququna malikdir".


Ruslan Vəliyev

## TƏLƏB OLUNAN SƏNƏDLƏR

Ədliyyə Nazirliyinin mətbuat xidmətindən sorğumuza cavab olaraq bildirilib ki, Azərbaycan Respublikası vətəndaşlarının öz adını, ata adını və soyadını dəyişdirməsinə icazə 18 yaşına çatdıqdan sonra yol verilir: "Adın, ata adının və soyadın dəyişdirilməsi haqqında ərizəyə ərizə verən şəxsin doğum haqqında şəhadətnaməsi, nikahdadırsa, nikah haqqında şəhadətnamə, nikahı pozulmuşdursa, nikahın pozulması haqqında şəhadətnamə, yetkinlik yaşına çatmayan uşaqları varsa, onların doğumu haqqında şəhadətnamələr, şəxsiyyətini təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti, hərbi biletin notariat qaydasında təsdiq edilmiş surəti, ərizə verən şəxsin 3x4 sm ölçüdə 2 ədəd fotoşəkli əlavə edilir". Müraciətin düzgün həll olunması üçün qeydiyyat şöbəsi və ya konsulluq idarəsi ərizə verən şəxsin barəsində tərtib edilmiş vətəndaşlıq vəziyyəti akt qeydlərinin (doğumu, varsa nikahı, nikahının pozulması, övladlarının doğumu və s.) əldə edilməsi üçün sorğu verir: "Ərizəyə həmin akt qeydləri olduqda baxılır. Akt qeydləri itibsə və ya onlarda hər hansı uyğunsuzluq varsa, ərizə və ona əlavə edilmiş sənədlər ərizə verən şəxsə qaytarılır, itmiş akt qeydinin bərpa olunması və ya akt qeydində dəyişiklik aparılması qaydası ona izah edilir. Ərizə verən şəxsin şəxsiyyətinin müəyyən edilməsi, eləcə də adın, ata adının və soyadın dəyişdirilməsi ilə istintaqdan, məhkəmədən, tibbi xarakterli məcburi tədbirlərin tətbiqindən yayınmasının qarşısının alınması məqsədi ilə qeydiyyat şöbəsi toplanmış sənədləri yoxlama aparılması üçün ərizə verən şəxsin yaşayış yeri üzrə rayon (şəhər) polis idarəsinə (şöbəsinə) göndərir. Polis şöbəsinin rəyindən asılı olaraq qeydiyyat orqanı adın, soyadın və ya ata adının dəyişdirilməsini qeydə alır, yaxud bundan imtina edir".

### PROSES 2-3 AY ÇƏKƏ BİLƏR

Nazirlikdən qeyd edilib ki, ərizənin icra müddəti qanunvericiliklə tənzimlənmir. Bununla belə, bu müddət (şəxsin vətəndaşlıq vəziyyəti aktları xarici ölkədə qeydə alınmadığı halda) təxminən 2-3 ay davam edir. Adın, soyadın və ata adının dəyişdirilməsi qeydə alındıqdan sonra isə onun barəsində tərtib edilmiş akt qeydlərinə dəyişiklik edilir və ona yeni şəhadətnamələr təqdim olunur. Bundan sonra vətəndaş şəxsiyyətini təsdiq edən sənədin dəyişdirilməsi üçün daxili işlər orqanlarına müraciət edir.

# DİVARLARINA XOŞBƏXTLİK SİRLƏRİ YAZILAN MUZEY

Kopenhagendəki Xoşbəxtlik Muzeyi çox unikaldır. Burada ziyarətçilər xoşbəxtliyi əsrlər və müxtəlif sivilizasiyalar prizmasından kəşf edə və divarları həyatlarının ən xoş anlarının xatirələri ilə bəzəyə bilərlər.




TƏRANƏ MƏHƏRRƏMOVA
taranamaharramova@kaspi.az

Dünyada 20 mart Beynəlxalq Xoşbəxtlik Günü kimi qeyd olunur. Bu tarixdə dünyadakı insanların və ölkələrin xoşbəxtliklərinin önəmi vurğulanır.

Danimarkanın Kopenhagen şəhərində yaradılan unikal Xoşbəxtlik Muzeyi də bu tarixə həsr olunub. Bu qeyri-adi muzey paytaxtın mərkəzi və sakit bir küçəsində yerləşir. Burada ziyarətçilər xoşbəxtliyi əsrlər və müxtəlif sivilizasiyalar prizmasından kəşf edə və muzeyin divarlarını öz ideyaları, həyatlarının ən xoş anlarının xatirələri ilə bəzəyə bilərlər. Muzeyə "Həyatdakı böyük şeylər haqqında kiçik bir muzey" deyilir.

Muzeyin eksponatları elmi baxımından xoşbəxtliyin bütün forma və təzahürlərinə həsr olunub. Ekspozisiyanın böyük hissəsi təqdim olunmuş eksponatlardan yaradılıb. Xoşbəxtlik anlayışı adi insanların baxış bucağından araşdırılıb.

Muzey Kopenhagenin pozitiv atmosferini əks etdirir və ziyarətçilərə ruhlandırıcı təcrübə təqdim edir.

## DÜNYAYA BİR AZ XOŞBƏXTLİK GƏTİRMƏK ARZUSU

Muzey Danimarkanın rifah, xoşbəxtlik və həyat keyfiyyətinə yönəlmiş beyin mərkəzi olan Xoşbəxtlik Tədqiqat İnstitutu tərəfindən yaradılıb. Muzeyin təsisçisi Mayk Vikinq eyni zamanda bu institutun direktorudur. O, uzun müddətdir ki, bu mövzu üzərində işləyir. Təsisçi "Hygge: Danimarka Xoşbəxtliyinin sirri" kitabını yazıb. "Hygge"ni tək bir sözlə izah etmək çətindir, lakin bu, Şimali Avropadakı insanlar üçün xarakterikdir: gündəlik həyatda rahatlıq və rifah hissini ifadə edir. Mayk Vikinq günlərin birində sadəcə elmdən kənara çıxıb hər kəsin xoşbəxtliyi yaşaya və müxtəlif ölkələrdə necə başa düşüldüyünü öyrənə biləcəyi bir yer yaratmaq qərarına gəlib. Muzeyin rəhbərliyi ideyanın sadə olduğunu bildirib: dünyaya bir az xoşbəxtlik gətirmək. "Düşündük ki, dünyanın həqiqətən bir az daha çox xoşbəxtliyə ehtiyacı var. Ona görə də "niyə insanların bunu yaşaya biləcəyi bir yer yaratmırıq?" - deyə fikirləşdik. Biz hamımız xoşbəxtlik axtarırıq kimi görünürük, amma bəlkə də səhv yerlərdə axtarırıq. Cəmiyyətlər getdikcə daha da zənginləşir, amma çox vaxt daha xoşbəxt ola bilmirik. Buna görə də Xoşbəxtlik Tədqiqat İnstitutu xoşbəxtliyi həyata gətirə biləcəyimiz bir muzey yaratmaq qərarına gəldi".

## "DEYƏRDİM Kİ, BİZ ƏN AZ BƏDBƏXT ÖLKƏLƏRİK"

Muzeyin açılmasının digər bir səbəbi BMT tərəfindən 2012-ci ildən bəri hər il dərc edilən Dünya Xoşbəxtlik Hesabatında Danimarkanın mütəmadi olaraq lider kimi yer almasıdır. Hesabatda qeyd edilir ki, mütəxəssislər xoşbəxtlik səviyyələrini adambaşına düşən ÜDM, ömür uzunluğu və həyat keyfiyyəti, sosial dəstək, qərar qəbuletmə azadlığı və sosial strukturlarda korrupsiyanın dərəcəsi kimi göstəricilərə əsasən müəyyən ediblər. Danimarka bu siyahıda birinci yerdədir.

Mayk Vikinq bildirir ki, Danimarka da daxil olmaqla, Skandinaviya ölkələrinin dünyanın ən xoşbəxt ölkələri olmasına dair bir çox məlumat var: "Deyərdim ki, biz ən az bədbəxt ölkələrik. Fikrimcə, Skandinaviya modeli həqiqətən bədbəxtliyin səbəblərini həll edir və buna görə də bu ölkələr birinci yerdədirlər".

## XOŞBƏXTLİYİN TƏRİFİ SORUŞULUR

Muzey həm də bir cəmiyyətin və ya ölkənin təmsilçilərinin niyə özlərini xoşbəxt və ya bədbəxt hesab etdiklərini, xoşbəxtliyin nədən qaynaqlandığını, həmçinin əsrlər boyu necə başa düşüldüyünü araşdırır.

Muzeydə müxtəlif ölkələrdən olan insanların xoşbəxtliyi necə başa düşdüyünü izah edən eksponatlar və interaktiv təcrübələr təqdim olunur. Anket doldurub muzey tərəfindən təklif olunan müxtəlif interaktiv fəaliyyətlərdə iştirak edən ziyarətçilərə mən də qarışıram. Ziyarətçilərdən həmçinin xoşbəxtliyin tərifi barədə soruşulur. Sərgilər ziyarətçilərə təsir göstərir və onların reaksiyaları xoşbəxtlik haqqında yeni tədqiqatlara əsas verir. Direktor deyir: "Xoşbəxtlik Muzeyində xoşbəxtliklə əlaqəli obyektlərə tur təşkil edirik ki, insanlar onu fərqli perspektivlərdən görmək imkanına malik olsunlar. Xoşbəxtliyin tarixini, xoşbəxtlik siyasətini, xoşbəxtlik elmini görürsünüz. Bu, kiçik bir muzeydir, amma həyatdakı böyük, vacib şeylər haqqındadır. Biz danimarkalı, meksikalı, amerikalı və ya çinli ola bilərik, amma ilk növbədə insanıq. Bizə eyni şeylər xoşbəxtlik gətirir. Ümid edirəm ki, insanlar sərgidə bunu başa düşürlər".

## DAHA MOTİVASİYALI VƏ MÜDRİK

Muzeyin divarında xoşbəxtlik və ÜDM arasındakı əlaqəni göstərən xəritə də yer alıb. Səkkiz otaqdan ibarət muzeydə xoşbəxtliyi müxtəlif perspektivlərdən araşdıran interaktiv sərgilər var.

"Xoşbəxtlik siyasəti" otağı sərvət və xoşbəxtlik arasındakı əlaqəni araşdırır. "Dünyada xoşbəxtlik" otağı isə ziyarətçilərin özləri tərəfindən yazılmış xatirələri və düşüncələri əks etdirən poçt qeydləri ilə örtülüb. Digər otaqlar xoşbəxtliyin elminə, tarixinə və coğrafiyasına həsr olunub, o cümlədən emosional cəhətdən ağıllı süni intellektdən tutmuş ölkələrin xoşbəxtliyə görə sıralandığı dünya xəritəsinə qədər məlumatlar sərgilənib.

"Gənclər bu muzeyə çox gəlirlər. Onlara xoşbəxtliyin nə demək olduğunu anlamaq maraqlıdır. Eksponatların qarşısında dayanıb düşünür, müzakirə edirlər. Bu, düşüncələr onların gələcək həyatlarını müəyyənləşdirməkdə də kömək edə bilər", - deyə muzeydə əminliklə bildirilir.

Rəhbərlik ümid edir ki, Xoşbəxtlik Muzeyini ziyarət etdikdən sonra qonaqlar daha müdrik, daha xoşbəxt və daha motivasiyalı olacaqlar.

Kaspi
ÜÇ ƏSRİN QƏZETİ
İDMAN
20 MART CÜMƏ 2026

SOYADINA LAYİQ ULDUZ



# AVROPAYA SƏS SALAN TÜRKLƏR

**Avropanı fəth edən türk futbolçuların siyahısı kifayət qədər genişdir. Üstəlik, bu oyunçuların əksəriyyəti gənc yaşdadır və karyeralarının ən parlaq dövrü çox güman ki, hələ qarşıdadır.**



Bir vaxtlar Avropanın yaşıl meydanlarında Türkiyə futbolunun bayrağını daşıyan kifayət qədər tanınmış simalar var idi. Arda Turan, Nuri Şahin, Hamit Altıntop, Emre Belezoğlu, Tuğay Kerimoğlu, Nihat Kahveci, Burak Yılmaz kimi "top ustaları" yaxın keçmişdə qitənin aparıcı çempionatlarında çıxış edərək qonşu ölkənin futbolunun adını böyük arenalarda tanıtmağı bacarmışdılar.

Bu gün isə həmin estafet yeni nəslə ötürülüb. Son illərdə Avropanın aparıcı klublarında özünü göstərən türk oyunçuların sayı artmaqdadır.

### ÇƏTİN TAPŞIRIĞIN ÖHDƏSİNDƏN GƏLƏN ARDA

Arda Güler "Real Madrid"ə keçərkən çoxları bu transferə şübhə ilə yanaşırdı. "Fənərbağça"dakı uğurlu çıxışı ilə Avropa nəhənglərinin diqqətini çəkən yarımmüdafiəçinin müştəriləri kifayət qədər idi. O isə yekunda riskli seçim edərək "kral klubu"na üz tutdu. Ulduzların bol olduğu Madrid təmsilçisində heyətə düşmək asan görünmürdü. Xüsusən, onun fiziki cəhətdən zəif olduğu barədə fikirlər səsləndirilirdi.

Üzərində səylə çalışan futbolçu zamanla bu iddiaların əsassız olduğunu sübut etdi və artıq "Real Madrid"in əsas simalarından birinə çevrilib. Bu, sadəcə söz deyil. Müasir futbolda çox şeyi rəqəmlər deyir və statistika da Ardanın madridlilərin önəmli fiqurlarından biri olduğunu sübut edir. Bu mövsüm o, 43 oyunda meydana çıxıb ki, bu da komanda üzrə ən yüksək göstəricidir. Ardanın fiziki cəhətdən zəif olması ilə bağlı müzakirələri artıq keçmişdə qalmış hesab etmək olar. O, performansı ilə bu etimadı da doğruldub. Cud Bellinqem, Brahim Diaz kimi hücumameyilli oyunçuların yer aldığı "Real Madrid"də Arda Güler 43 oyunda 4 qol və 13 məhsuldar ötürmə ilə effektivliyini göstərib. Xüsusən, komandanın əsas qol silahı Kilian Mbappe ilə anlaşması diqqət çəkir. Ümumilikdə 17 qolda birbaşa iştirak edən yarımmüdafiəçi bu göstəriciyə görə komandada yalnız Mbappe, Vinisius və Valverdedən geri qalır.

Bu gün artıq La Liqa tarixində bir türk futbolçunun adı xüsusi qeyd olunur. "Elçe" ilə qarşılaşmada 68 metrdən vurduğu möhtəşəm qolla Arda rekorda şərik oldu. Buna qədər çempionat tarixində ən uzaqdan vurulan qol rekordu 2004-cü ildə eyni göstərici ilə fərqlənən Antonio Xoseyə məxsus idi.

İtaliyada forma nömrələrinə xüsusi əhəmiyyət verilir. Bir sıra klublarda bəzi nömrələr əfsanəvi futbolçuların şərəfinə əbədiləşdirilib. 7 və xüsusən 10 nömrəli formalar isə hər futbolçuya etibar edilmir. Bu gün Alessandro Del Pierodan sonra "Yuventus"un "10 nömrə"si bir türk futbolçudur - Kənan Yıldız.

Almaniyada futbolun sirlərinə yiyələnən 20 yaşlı vinger artıq Turin klubunun əsas simalarından birinə çevrilib. O, bu mövsüm 39 matçda meydana çıxıb ki, bu da komandada ən yüksək göstəricilərdən biridir. Məhsuldarlıq baxımından isə Kenan komandanın lideridir - 10 qol və 10 assist. Ümumən komandanın oyununda aparıcı fiqur məhz odur. Turin klubunda məşqçilər dəyişir, oyun üslubu yenilənir, lakin diqqət mərkəzində qalan əsas ad yenə Kənandır. Performansı ilə soyadına tam layiq olan Yıldızı "Yuventus" azarkeşləri artıq indidən komandanın gələcək potensial əfsanələrindən biri kimi görürlər.

### GƏNCLƏR ÜÇÜN YAXŞI NÜMUNƏ

Haqqında bəhs edəcəyimiz növbəti futbolçu son illər Avropanın ən möhkəm kollektivlərindən sayılan "İnter"in əsas simalarından olan Hakan Çalhanoğludur. Çox az oyunçu karyerasını uzun illər yüksək səviyyədə davam etdirməyi bacarır. Bir çox istedadlı futbolçu məhz stabilliyin olmaması səbəbindən istədiyi zirvələrə çatmağı bacarmayıb. Hakan bu baxımdan fərqlənənlərdəndir. Artıq 30 yaşı haqlayan yarımmüdafiəçi hələ də gənclik illərindəki kimi yüksək performans nümayiş etdirməyi bacarır. Karyerasının son 9 ilini Milanda keçirən oyunçu əvvəlcə şəhərin eyniadlı klubunda, ardınca "İnter"də uğurlu çıxışı ilə diqqət çəkməyi bacarıb. Bu mövsüm 9 qol və 4 məhsuldar ötürmə ilə yadda qalan təcrübəli yarımmüdafiəçinin karyerası və sabitliyi Arda, Kənan və digər gənc türk istedadlar üçün yaxşı nümunə sayıla bilər.

## UĞURLU TÜRK FUTBOLÇULARIN SİYAHISI GENİŞDİR


FERDİ KADIOGLU

Türkiyənin Avropanın yaşıl meydanlarındakı uğurlu təmsilçilərinin siyahısı yalnız adlarını xüsusi qeyd etdiyimiz futbolçularla məhdudlaşmır. A Seriyası, Bundesliqa, Premyer Liqa kimi aparıcı çempionatlarda çıxış edən "ay-ulduzlu" yığma üzvlərinin sayı kifayət qədərdir.

İlk vaxtlar İngiltərə futbolunun tempinə uyğunlaşmaqda çətinlik çəkən Ferdi Kadioglu artıq "Brayton"un əsas heyət oyunçularından birinə çevrilib. Zeki Çelik isə "Roma" müdafiəsinin sütunlarından sayılır. Atakan Karazor "Ştutqart"da möhkəmlənib. Türkiyənin ən perspektivli gənc istedadlarından sayılan Can Uzun Bundesliqanın yüksələn ulduzlarındandır. Son vaxtlar zədədən əziyyət çəksə də, "Ayntraxt"ın hücumçusu bu mövsüm 8 qolla komandasının ən məhsuldar ikinci oyunçusudur. Gənc istedadları üzə çıxarmaqda ixtisaslaşan "Portu"da isə daha bir türk futbolçu diqqət çəkməkdədir. Gənc forvard Deniz Gül qolları ilə inkişafda olduğunu göstərir.

Göründüyü kimi, Avropanı fəth edən türk futbolçuların siyahısı kifayət qədər genişdir. Üstəlik, bu oyunçuların əksəriyyəti gənc yaşdadır və karyeralarının ən parlaq dövrü çox güman ki, hələ qarşıdadır.